Demokratik Təşəbbüslər İnstitutu

Institute for Democratic Initiatives

2019

# Sərbəst toplaşmaq azadlığının vəziyyəti ilə bağlı ARAŞDIRMA SƏNƏDİ

## Mündəricat

Qısaltmalar ..... 4
1. Giriş ..... 4
2. Metodologiya ..... 5
3. Qanunvericilik ..... 6
   3.1.*Daxili Qanunvericilik* ..... 6
   3.2. Beynəlxalq Qanunvericilik ..... 10
4. Sərbəst toplaşmaq azadlığının vəziyyətinin monitorinqi ..... 13
   4.1. Siyasi məzmunlu aksiyalara müdaxilələr ..... 13
   4.2. Sosial məzmunlu aksiyalara müdaxilələr ..... 25
   4.3. Müxtəlif məzmunlu aksiyalara müdaxilələr ..... 28
   4.4. Bayram və xüsusi günlərlə bağlı aksiyalara müdaxilələr ..... 29
   4.5. Mətbuat və jurnalistlərin fəaliyyətinə müdaxilələr ..... 31
   4.6. Qapalı məkanlarda keçirilən toplantılara müdaxilələr ..... 34
   4.7. İcazə verilməyən toplantılar ..... 35
5. Beynəlxalq Təşkilatların Reaksiyaları ..... 37
6. Nəticə ..... 39
7. Tövsiyələr ..... 40

# Xülasə

Azərbaycanda sərbəst toplaşmaq azadlığı, yalnız Konstitusiya ilə deyil, eyni zamanda Azərbaycan Respublikasının (AR) ratifikasiya etdiyi beynəlxalq sənədlərlə də qorunur. Buna baxmayaq, ölkədə bu sahədə ciddi problemlər var. Bu problemlər sadəcə qanunvericilikdən deyil, eləcə də praktikada qanunvericiliyin səhv və məhdud tətbiq edilməsindən də qaynaqlanır. Hesabatın məqsədi bu problemlərin müəyyənləşdirilib aşkar edilməsi və vəziyyətin yaxşılaşdırılması üçün tövsiyələrin verilməsidir.

Tərtib edilən hesabat metodologiya, giriş, qanunvericilik, vəziyyətin monitorinqi, nəticə və tövsiyələr adlı 7 hissədən ibarətdir. Metodologiyada hansı mənbələrdən istifadə edildiyi, məlumatların hansı üsullarla əldə edildiyi və əldə edilmiş məlumatların təhlil edildiyi qeyd edilir.

Girişdə isə toplaşmaq azadlığının əhəmiyyətindən, Azərbaycanda sərbəst toplaşmaq azadlığının vəziyyətindən, eləcə də hesabatı zəruri edən səbəblərdən bəhs edilir.

“Qanunvericilik” hissəsi iki fəsildən ibarətdir. İlk fəsildə toplaşmaq azadlığını tənzimləyən daxili normalardan – Konstitusiyanın 49-cu maddəsi, “Sərbəst toplaşmaq azadlığı haqqında” Qanun, İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsində toplaşmaq azadlığına müdaxilələri müəyyən edən maddələrdən danışılır. Beləliklə, toplantı anlayışı, toplantı keçirilməsinin qanuni üsulları, ona müdaxilə əsasları və formaları barədə məlumat verilir. İkinci fəsildə isə sərbəst toplaşmaq azadlığını qoruyan məcburi hüquqi qüvvəyə sahib AR-nın qoşulduğu beynəlxalq sənədlər, insan hüquqları sahəsində fəaliyyət göstərən bir sıra qurumların dövlətlərə tövsiyə xarakterli rəhbər prinsipləri və Avropa İnsan Hüquqları Məhkəməsinin toplaşmaq azadlığı ilə bağlı Azərbaycanla bağlı verdiyi əsas qərarları yer alır.

“Vəziyyətin monitorinqi” adlı hissənin birinci fəsli 2016-cı ilin sentyabrından 2019-cu ilin mayın 1-nə kimi müdaxiləyə məruz qalmış toplantıları və toplantılara hansı formalarda müdaxilələr edildiyini təsvir edir. Bu hissədə toplantılar məzmununa görə bir neçə qrupa bölünür: siyasi, sosial və müxtəlif məzmunlu aksiyalar. Bunlardan əlavə, sərbəst toplaşmaq azadlığı haqqında qanun ilə tənzimlənməyən toplantılar da iki alt başlıqda əks olunur: bayram və xüsusi günlərlə bağlı aksiyalar və qapalı məkanlarda keçirilən toplantılar. Bu bölmədə jurnalistlərə edilmiş müdaxilələrdən və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən icazə verilməyən toplantılardan da bəhs edilir. Hər bir alt başlıqdakı faktlar xronoloji ardıcıllıqla düzülüb.

Beşinci hissədə isə insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumların Azərbaycandakı toplaşmaq azadlığının vəziyyətilə bağlı dəyərləndirməsi və BMT-nin İnsan Hüquqları Şurasının ən son Universal Dövri İcmalında digər ölkələrin bu mövzu barədə dəyərləndirilməsi və tövsiyələrindən danışılır.

“Nəticə” hissəsi qanunvericiliyin analizi və monitorinqin təhlilini, ümumilikdə araşdırmanın nəticələrini özündə əks etdirir. Burada qanunvericilikdəki boşluqlar aşkar edilib və praktikada sərbəst toplaşmaq azadlığına qoyulan müdaxilələr təhlil edilib, qanuna uyğun olub-olmadığı araşdırılıb. Son olaraq “Tövsiyələr” hissəsində sərbəst toplaşmaq azadlığına qanunsuz

müdaxilələrin qarşısını almaq üçün həm qanunvericilikdə, həm də praktikada hansı addımların atıla biləcəyi haqqında danışılır.

# Qısaltmalar

| | |
|---|---|
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| AI | Amnesty International |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| AR | Azərbaycan Respublikası |
| AŞPA | Avropa Şurasının Parlament Assambleyası |
| ATƏT | Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| AXCP | Azərbaycan Xalq Cəbhəsi Partiyası |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BŞBPİ | Bakı Şəhər Baş Polis İdarəsi |
| BŞİH | Bakı Şəhər İcra Hakimiyyəti |
| CM | Cinayət Məcəlləsi |
| DQMŞ və ya MŞ | Demokratik Qüvvələrin Milli Şurası və ya Milli Şura |
| İXM | İnzibati Xətalar Məcəlləsi |
| KİV | Kütləvi İnformasiya Vasitələri |
| QAT | Qarabağ Azadlıq Təşkilatı |
| RİH və ya İH | Rayon İcra Hakimiyyəti və ya İcra Hakimiyyəti |
| YAP | Yeni Azərbaycan Partiyası |

# 1. Giriş

Avropa Birliyində mülki hüquqları təbliğ edən qeyri-hökumət təşkilatı "The Civil Liberties Union for Europe" toplaşmaq azadlığının əhəmiyyətini belə təsvir edir:[1]

"Demokratik cəmiyyətlərdə sərbəst toplaşmaq azadlığı insanların sosial dəyişikliyə nail olmaq vasitələrindən biridir. Sərbəst toplaşmaq azadlığı insanların öz fikirlərini hakimiyyətə və cəmiyyətin digər üzvlərinə çatdırmağın vacib üsullarından biridir. Toplaşmaq azadlığı ictimai debatı və rəngarəngliyi gücləndirir, cəmiyyətdə dəyişikliyə nail olmağa kömək edir.

[1] https://www.liberties.eu/en/news/freedom-of-assembly-public-education/13174

…Toplantılar bizi narahat edə bilər. Məsələn, işə tələsərkən ən qısa yol toplantı səbəbilə bağlı ola bilər. Lakin unutmayaq ki, biz eyni cəmiyyətdə yaşayırıq və hər birimizin bu cəmiyyətdə nəyin necə ediləcəyi barədə söz haqqına sahib olması çox mühümdür. İnsanların fikirlərini ifadə etmək hüququ əllərindən alınanda onların ləyaqətli yaşamaq hüququ da əllərindən alınmış olur".

Azərbaycanda sərbəst toplaşmaq azadlığının vəziyyətinə gəldikdə isə ABŞ dövlət departmetinin 2008-ci il insan hüquqlarina dair hesabatında[2] belə qeyd olunub:

"Ölkədə insan hüquqlarının vəziyyəti irəliləmədi, hətta bəzi sahələrdə gerilədi… Xüsusilə də siyasi təşkilatlanma, dinc toplantılar və dini fəallıq cəhətdən sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılmasına davam edildi.

Qanun sərbəst toplaşmaq azadlığını təmin etsə də, hakimiyyət nümayəndələri praktikada bu hüququ ciddi şəkildə məhdudlaşdırıblar. Konstitusiya qrupların yalnız qabaqcadan xəbərdarlıq verməklə dinc şəkildə toplaşa biləcəyini bildirsə də, Bakı Şəhər İcra Hakimiyyəti bunu icazə kimi şərh edir".

2011-ci ildə "Amnesty International"ın yayımladığı "Heç vaxt çiçəklənməyən bahar" hesabatında[3] sərbəst toplaşmaq azadlığının təmin olunmadığını qeyd edib:

"Amnesty International" Azərbaycan hakimiyyətinin sərbəst toplaşma azadlığını məhdudlaşdırıcı şəkildə interpretasiya etməsindən dərin narahatlıq hissi keçirir… Bakının hər hansı mərkəzi hissəsində toplaşmağa icazə verilməməsi və çox sayda dinc etirazçının döyülməsi ilə Azərbaycan özünün beynəlxalq insan haqları öhdəliklərini pozmuşdur… Azərbaycanda ictimai etiraz aksiyalarının iştirakçıları ya onlara təklif olunan qeyri-münasib yerlərə razılıq vermək, ya da aksiyaları zamanı sərt əzişdirilmə riski ilə üzləşmək kimi qərəzli seçim qarşısında qalırlar".

Sərbəst toplaşmaq azadlığının vəziyyəti haqqında bu günə qədər aparılmış yerli hesabatlardan ikisinin – 2007-ci ildə Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası tərəfindən[4] və 2014-cü ildə Demokratiyanı Öyrənmə İctimai Birliyi tərəfindən[5] həyata keçirilən hesabatların gəldiyi nəticələrdən və verdiyi tövsiyələrdən görünür ki, yeddi il ərzində nəzərəçarpan irəliləyiş olmayıb. 2007-ci ildə səsləndirilən problemlər 2014-cü ildə də həllini tapmayıb.

Uzun müddətdir ki, bu mövzuda yeni monitorinqin həyata keçirilməməsi və mətbuatda sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması ilə bağlı mütəmadi verilən xəbərlər bu mövzunun yenidən araşdırılmasını zəruri edir.

## 2. Metodologiya

Mövcud vəziyyətin dəyərləndirilməsi üçün sərbəst toplaşmaq azadlığı ilə bağlı yerli və beynəlxalq qanunvericilik nəzərdən keçirilmiş, sərbəst toplaşmaq azadlığının məhfumu və müdaxilə əsasları müəyyənləşdirilmişdir. Beynəlxalq qanunvericilik araşdırılarkən həm məcburedici qüvvəsi olan, həm də tövsiyə xarakterli sənədlər də nəzərdən keçirilmiş və bu sənədlərə əsasən qanunvericilikdə və praktikada sərbəst toplaşmaq azadlığı vəziyyətinin necə olmalı olduğu təsvir edilmişdir.

---

[2] https://2009-2017.state.gov/j/drl/rls/hrrpt/2008/eur/119068.htm
[3] https://www.amnesty.org/download/Documents/32000/eur550112011az.pdf
[4] https://www.dropbox.com/s/tcko9zd3uccr9tg/report%20-%20milli%20-%20Sarbast%20toplashmaq%20huququ-%202007.pdf?dl=0
[5] http://deyerler.org/engine/download.php?id=641

Faktların toplanması üçün səlahiyyətli qurumlara və partiyalara sorğular göndərilmişdir. lakin Bakı Şəhər İcra Hakimiyyəti iş yükünün çox olması səbəbilə müraciətə cavab verməkdən imtina etmişdir. Bundan əlavə mediya monitorinqi vasitəsilə Bakı Şəhər Baş Polis idarəsinin saytında, "Report.az", "Amerikanın Səsi", "Azadlıq.org" və "Turan.az" saytlarındakı toplantılar barədə xəbərlər araşdırılıb. "Meydan TV"-nin youtube səhifəsindəki video görüntülər nəzərdən keçirilib. 6-cı bölmədə insan hüquqları üzrə fəaliyyət göstərən beynəlxalq qurumların Azərbaycanla bağlı ən son hesabatları və bəyanatları araşdırılıb.

Əldə edilmiş məlumatlar analiz-sintez metodları ilə qiymətləndirilmək yolu ilə nəticəyə gəlinib.

# 3. Qanunvericilik

## 3.1.*Daxili Qanunvericilik*

**Toplantının anlayışı.** Azərbaycan Respublikasında toplaşmaq azadlığı Konstitusiyanın 49-cu maddəsi[6] və bu sahə üçün qəbul edilmiş xüsusi qanun "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanun[7]la nizamlanır. Konstitusiyanın qeyd olunmuş maddəsində və qanunun 3-cü maddəsində AR-də qanunla qorunan toplantıların növləri belə təsbit edilib: yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket. Qanunun 4-cü maddəsində bu qanunun təsiri altına düşməyən toplantıların siyahısı isə belə verilib; *ayrı-ayrı şəxslərin xüsusi mülkiyyətində, icarəsində və ya başqa növ qanuni istifadəsində olan yerlərdə, ictimai tədbirlərin keçirilməsi üçün xüsusi olaraq ayrılmış qapalı yerlərdə keçirilən toplantılar bu qanunla nizamlanmır.* Bu kimi yerlərdə keçirilən toplantılardan əlavə toy və dəfn mərasimləri, bayram və matəm tədbirləri, dini mərasimlər kimi toplantılar da bu qanunun təsir dairəsinə düşmür. O şərtlə ki bu tədbirlər yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket məqsədləri üçün istifadə edilməsin.

**Xəbərdarlıq icraatı.** Qeyd olunan xüsusi qanunun 5-ci maddəsinə əsasən toplantıların keçirilməsi üçün xəbərdarlıq edilməsi tələb olunur. Toplantı keçirmək istəyən şəxslər, yəni təşkilatçılar 5 iş günü əvvəl yerli icra hakimiyyətini yazılı şəkildə xəbərdar etməlidir. Bu xəbərdarlıq hökumət tərəfindən toplantının təhlükəsizliyi ilə bağlı zəruri tədbirlərin görülməsi üçün nəzərdə tutulur. Xəbərdarlıqda toplantının forması (yığıncaq, mitinq, nümayiş, küçə yürüşü, piket), ümumi məqsədi, keçirilmə yeri və vaxtı, iştirakçıların təxmini sayı, marşrutu (küçə yürüşü keçirilirsə), təşkilatçıları barədə bəzi lazımi məlumatlar əks olunmalıdır. İstisna olaraq, təsadüfi keçirilən toplantılar üçün xəbərdarlıq tələb olunmur.

**Dövlətin toplantılara müdaxiləsi**

Konstitusiyanın 59-cu maddəsinə əsasən sərbəst toplaşmaq azadlığına müdaxilələr aşağıdakı kimi təsbit edilib:

*"Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə, dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır".*

[6] http://www.e-qanun.az/framework/897
[7] http://www.e-qanun.az/framework/3229#

Qanunvericiliyə əsasən dövlət insanların sərbəst toplaşmaq azadlığına 3 zamanda müdaxilə edə bilər: toplantıdan əvvəl, toplantı zamanı və toplantıdan sonra.

**Toplantıdan əvvəl müdaxilə.** Qanunun 7, 8 və 9–cu maddələrinə əsasən toplantıdan əvvəl iki cür müdaxilə edilə bilər:

1) məhdudlaşdırıla bilər, yəni təşkilatçılardan toplantının yerini, zamanını və ya küçə yürüşünün marşurutunu dəyişdirmək tələb oluna bilər;

2) toplantının keçirilməsi qadağan edilə bilər.

*Məhdudlaşdırılma.* Qanunun 7-ci maddəsinin birinci bəndinə əsasən toplantılar ictimai və dövlət təhlükəsizliyini, ictimai asayişi, əhalinin sağlamlığını, əxlaq normaları və mənəviyyatı, digər şəxslərin hüquq və azadlıqlarını qorumaq və iğtişaş və ya cinayətlərin baş verməsinin qarşısını almaq məqsədilə məhdudlaşdırıla bilər. Lakin eyni maddənin 2-ci və 3-cü bəndləri edilmiş müdaxilənin zəruri və mütənasib olması şərtini də irəli sürür.

Bundan əlavə, qanunun 9-cu maddəsinin 2-ci bəndinə əsasən əgər eyni yerdə və vaxtda digər toplantı təyin edilibsə, tərəflər arasında münaqişə yarana biləcəyi barədə kifayət qədər əsas varsa, icra hakimiyyəti toplantı təşkilatçılarına (müraciət sırasına görə ikinciyə) başqa vaxtın və yerin müəyyən edilməsini təklif etməlidir. Eyni maddənin dördüncü bəndinə əsasən ziyarətgahlarda, ibadətgahlarda və qəbiristanlarda siyasi məzmunlu toplantıların keçirilməsinə də məhdudiyyət qoyula bilər.

*Qadağan edilmə.* Qanunun 8-ci maddəsinə əsasən ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlar səsləndirən, milli, irqi və ya dini ədavəti və müharibəni təbliğ edən toplantıların keçirilməsi tamamilə qadağandır. Bunlardan əlavə seçki və referendumun keçirildiyi günə 24 saat qalmışdan səsvermə məntəqələri bağlananadək heç bir siyasi məzmunlu toplantı da keçirilə bilməz.

Qanunun yeddinci maddəsinin birinci hissəsində göstərilmiş məhdudlaşdırıcı əsaslara (toplantılar ictimai və dövlət təhlükəsizliyini, ictimai asayişi, əhalinin sağlamlığını, əxlaq normaları və mənəviyyatı, digər şəxslərin hüquq və azadlıqlarını qorumaq məqsədilə və iğtişaş və ya cinayətlərin baş verməsinin qarşısını almaq üçün) əsasən də toplantılar qadağan edilə bilər. Qanunun 8-ci maddəsinin 4-cü bəndinə əsasən məhdudlaşdırma əsaslarından biri olan təhlükəsizliyin təmin etmək məqsədilə rayon və ya şəhər ərazisində dövlət əhəmiyyətli beynəlxalq tədbir keçirilərsə, həmin ərazilərdə siyasi məzmunlu toplantı keçirilməsi qadağan edilə bilər.

Qanunun 9-cu maddəsinin 3-cü bəndi isə piket istisna olmaqla, digər toplantı növlərinin bir sıra dövlət əhəmiyyətli qurumların yerləşdiyi binaların[8] ətrafında 200 metr radius çərçivəsində, hərbi məqsədlərlə istifadə olunan ərazilərin ətrafında 150 metr radius çərçivəsində, penitensiar müəssisələrin, istintaq təcridxanalarının, psixiatriya müalicə müəssisələrinin ətrafında 150 metr radius çərçivəsində və tikinti aparılan sahələrdə, insan həyatı və sağlamlığı üçün təhlükəli olan istehsalat obyektlərində və istismarı xüsusi təhlükəsizlik texnikası normalarına riayət olunmasını tələb edən digər obyektlərdə və s. keçirilməsi qadağan edilə bilər.

[8] http://e-qanun.gov.az/alpidata/framework/data/15/c_f_15469.htm

**Toplantı zamanı müdaxilə.** Qeyd edilmiş qanuna əsasən toplantılar dayandırıla bilər. Bu qanunla tənzimlənməyən toy və dəfn mərasimlərindən, bayram və matəm tədbirlərindən, dini mərasimlərdən yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket keçirilməsi üçün istifadə olunduğu təqdirdə, həmin toplantılar və təsadüfi toplantılar da daxil olmaqla bütün toplantılar qanunun 7-ci və 8-ci maddələrində göstərilən əsaslarla dayandırıla bilər. Buna baxmayaraq toplantının dayandırılması və qadağan edilməsi son zərurət tədbiridir, başqa heç bir məhdudiyyət kifayət etmədikdə tətbiq edilməlidir.

Qanunda polis orqanlarının səlahiyyətlərini nizamlayan 14-cü maddənin birinci bəndi də sərbəst toplaşmaq azadlığına toplantı zamanı edilə bilən bəzi məhdudiyyətləri özündə cəmləşdirir. Təsadüfi toplantılar istisna olmaqla, polis qabaqcadan yazılı xəbərdarlıq verilməyən toplantıları və heç bir əsas gətirilmədən təşkilatçılar tərəfindən toplantının yeri və vaxtı, küçə yürüşünün marşrutu dəyişdirildikdə, polis həmin toplantıları dayandıra bilər.

**Toplantıdan sonra müdaxilə.** Toplantıdan sonra inzibati və cinayət məsuliyyətinə cəlb edilməklə insanların sərbəst toplaşmaq azadlığına müdaxilə edilir. Bunun üçün təcrübədə aşağıdakı hüquqi əsaslardan istifadə edilir.

*İnzibati Xətalar Məcəlləsi.* Burada sözügedən inzibati cəzalar İnzibati Xətalar Məcəlləsi[9]nin 510, 513, və 535.1-ci maddəsində təsbit edilib.

İXM-nin 510-cu maddəsinə əsasən ictimai qaydanı pozan xırda xuliqanlıq əməli törətdikdə şəxs əlli manatdan yüz manatadək məbləğdə cərimə edilir və ya on beş günədək müddətə inzibati qaydada həbs edilir.

İXM-nin 513-cü maddəsi isə "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunla müəyyən edilmiş qaydada keçirilməyən toplantıların təşkilatçıları və iştirakçıları üçün cəzaları müəyyən edir. Təşkilatçı barəsində (əgər fiziki şəxsdirsə) min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə və ya iki yüz saatdan iki yüz qırx saatadək ictimai işlər və yaxud iki ayadək müddətə inzibati həbs cəzası tətbiq edilir. Təşkilatçı vəzifəli şəxs olduqda üç min manatdan altı min manatadək məbləğdə, hüquqi şəxs olduqda isə on beş min manatdan otuz min manatadək məbləğdə cərimə edilir. İştirakçılara gəldikdə isə, onlar barəsində üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə, yüz altmış saatdan iki yüz saatadək ictimai işlər və ya iki ayadək müddətə inzibati həbs cəzası tətbiq edilir.

İXM-nin 535.1-ci maddəsinə əsasən ictimai qaydanı mühafizə edərkən polis işçisinin qanuni tələblərinə qəsdən tabe olmamağa görə fiziki şəxslər iki yüz manat məbləğində cərimə edilir və ya bir ayadək müddətə inzibati qaydada həbs edilir.

*Cinayət Məcəlləsi.* Toplantı təşkilatçıları və iştirakçıları barədə cinayət məsuliyyəti isə Cinayət Məcəlləsinin[10] 169.1, 220, 221, 233 və 315-ci maddəsində təsbit olunub.

CM-in 169.1-ci maddəsinə əsasən vətəndaşların hüquq və qanuni mənafelərini əhəmiyyətli dərəcədə pozan və qanunvericiliklə qadağan olunmuş toplantılarda iştirak edən şəxslər barəsində beş min manatdan səkkiz min manatadək miqdarda cərimə, iki ilədək müddətə islah işləri və ya iki

---

[9] http://www.e-qanun.az/code/24
[10] http://www.e-qanun.az/code/11

ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzası tətbiq edilir.

CM-in 220-ci maddəsinə əsasən əgər toplantı zorakılıqla, odlu silahın tətbiq olunması və yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşlara çevirilərsə, belə iğtişaşları təşkil etmək və onlarda iştirak etmə dörd ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Şəxs toplantıda hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmamağa, kütləvi iğtişaşlara və ya zorakılığa çağırış etdiyi təqdirdə isə barəsində üç ilədək azadlıqdan məhrum etmə cəzası tətbiq edilir.

CM-in 221.1.-ci maddəsinə əsasən ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə qarşı açıq hörmətsizlik ifadə edən, şəxslərə qarşı zor tətbiq edən və ya bununla hədələyən, digər şəxslərin əmlakını məhv edən və zədələyən şəxslərə qarşı min manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə cəzaı tətbiq edilir. 221.2.2.-ci maddəyə əsasən isə sadalanan əməllər ictimai qaydanı qoruyan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədildikdə şəxs iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

CM-in 233-cü maddəsinə əsasən əgər şəxslər ictimai qaydanı kobuq şəkildə pozan, hakimiyyət nümayəndəsinin qanuni tələblərinə tabe olmayan və ya yaxud nəqliyyatın, müəssisə, idarə və təşkilatın normal fəaliyyətinin pozan hərəkətləri təşkil edər və ya bu hərəkətlərdə fəal iştirak edərsə, şəxslər barəsində beş min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası tətbiq edilir.

CM-in 315-ci maddəsinə əsasən isə hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə, həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə isə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qanunvericiliyin dəyişiklik tendensiyası.** Qəbul edildiyi gündən etibarən qeyd edilmiş xüsusi qanunlara dəyişikliklər edilib, hətta 2015-ci ilin 29 dekabrında yeni İnzibati Xətalar Məcəlləsi qəbul edilib. Bu dəyişikliklərdən bəziləri insanların sərbəst toplaşmaq azadlığını daha da məhdudlaşdırıldı.

*"Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna edilmiş məhdudlaşdırıcı dəyişikliklər.* 30 may 2008-ci il tarixli 609-IIIQD nömrəli qanunl[11] iki məhdudlaşdırıcı dəyişiklik edildi:

Birincisi, xəbərdarlığın verilməsi müddəti 5 gündən 5 iş gününə dəyişdirildi.

İkincisi, əvvəlki redaksiyada 14-cü maddədə təsadüfi toplantılar istisna olmaqla, polisə digər yazılı xəbərdarlıq verilməyən toplantıları yalnız zəruri hallarda dayandırmaq səlahiyyəti verilirdi, lakin dəyişiklikdən sonra maddədən "zəruri hallarda" sözü çıxarılıb və polisə bütün xəbərdarlıq verilməyən toplantıları dayandırmaq səlahiyyəti verilib.

[11] http://www.e-qanun.az/framework/15014

*İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə edilmiş dəyişikliklər.* 11 iyul 2010-ci ildə təsdiqlənmiş İnzibati Xətalar Məcəlləsi[12] ilə müqayisədə cari İnzibati Xətalar Məcəlləsində cəzalar çox daha ağırdır. Belə ki, toplantıların təşkili və keçirilməsi qaydasının pozulmasına görə (cari İXM-in 513-cü maddəsi) əvvəlki məcəllə ilə ya xəbərdarlıq edilir, ya da yeddi manatdan on üç manata qədər cərimə edilirdi. Polis işçisinin qanuni tələbinə qəsdən tabe olmamağa görə (cari İXM-in 535-ci maddəsi) isə şəxs ya iyirmi manatdan iyirmi beş manatadək miqdarda cərimə olunur, ya da on beş günədək müddətdə inzibati qaydada həbs edilirdi.

*Cinayət Məcəlləsinin müvafiq maddələrinə edilmiş dəyişikliklər.* 02 noyabr 2012-ci il tarixli qanuna əsasən, CM-nin 169.1-cı (Toplantıları keçirmə qaydasını pozma) və 233-cü (.İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə) maddəsinə əsasən cərimə miqdarı kəskin şəkildə artırıldı. Əvvəl 169.1- ci maddənin pozuntuna görə nəzərdə tutulan cərimənin məbləği maksimum 300 manat ikən artıq beş min manatdan səkkiz min manatadək oldu. 233-cü maddəyə görə nəzərdə tutulan cərimə miqdarı əvvəl beş yüz və min manat arası ikən, cari qanunvericiliyə əsasən cərimə miqdarı beş min manatdan səkkiz min manatadək dəyişə bilər.

## 3.2. Beynəlxalq Qanunvericilik

**Məcburi xarakterli beynəlxalq qanunvericilik.** Bundan əlavə AR bir sıra beynəlxalq sənədlərə qoşulmaqla onların da yurisdiksiyasını tanıyıb. Bu sənədlərdən BMT-nin 10 dekabr 1948-ci il tarixli Beynəlxalq İnsan Hüquqları Bəyannaməsinin[13] 20-ci maddəsində və 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar Haqqında Paktının[14] 21-ci maddəsində, o cümlədən 4 noyabr 1950-ci il tarixli İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının[15] 11-ci maddəsində də sərbəst toplaşmaq azadlığı fundamental hüquqlardan biri olaraq qorunur.

**Avropa İnsan hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarları.** AİHM Azərbaycanla bağlı bir sıra işdə 11-ci maddənin pozuntusunu tanıyıb. Bu işlərdə AİHM əsasən üç işə istinad edir:

1) Qafqaz Məmmədov Azərbaycana qarşı[16];

2) Hüseynli və qeyriləri Azərbaycana qarşı[17];

3) İbrahimov və qeyriləri Azərbaycana qarşı[18].

Birinci və üçüncü işdə məhkəmə toplantı zamanı edilmiş müdaxilənin qanuniliyini araşdırıb. Məhkəmə hər iki işdə qərara gəldi ki, "səlahiyyətli hakimiyyət nümayəndələri ərizəçilərin sərbəst toplaşmaq azadlığına qarşı tolerantlıqla və xoş niyyətlə cavab verə bilməyiblərş Müdaxiləyə haqq qazandıracaq səbəblər kifayət qədər deyil və ərizəçilərə qarşı tətbiq edilmiş cəzalar qeyri-mütənasibdir. Toplantıların dağıdılması və ərizəçilərin həbsi həm onları siyasi toplantılarda iştirak

[12] https://caa.gov.az/index.php?option=com_k2&view=item&task=download&id=117_88aa97fe7412107f9309f0171243adee&Itemid=173&lang=az
[13] https://www.un.org/en/universal-declaration-human-rights/
[14] https://www.ohchr.org/en/professionalinterest/pages/ccpr.aspx
[15] https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf
[16] http://hudoc.echr.coe.int/eng?i=001-157705
[17] http://hudoc.echr.coe.int/eng?i=001-160429
[18] http://hudoc.echr.coe.int/eng?i=001-160430

etməkdən çəkindirə, həm də ümumilikdə müxalifət tərəfdarlarını və cəmiyyətin digər üzvlərini toplantılarda və biləvasitə açıq siyasi debatda iştirak etməkdən çəkindirə bilər".

İkinci işdə isə məhkəmə toplantıdan əvvəl toplantıda iştirak edəcək şəxslər barəsində "xırda xuliqanlıq" və "polis işçisinin qanuni tələblərinə qəsdən tabe olmamaq" maddələri ilə ittiham edilərək inzibati qaydada həbs olunmasının 11-ci maddənin pozuntusu olub-olmadığını araşdırıb. Məhkəmə qərara gəlib ki, "ərizəçilər 2 aprel 2011 mitinqində iştirak etməklərinin qarşısını almaq və müxalifət mitinqlərində iştirak etdiklərinə görə cəzalandırmaq üçün inzibati qaydada həbs ediliblər… Məhkəmə razılaşır ki, qeyd edilmiş hüquqi əsaslarla onların sərbəst toplaşmaq azadlığına edilmiş müdaxilə qanunsuzdur.

Bu müdaxilələr həm onları toplantılarda iştirak etməkdən, həm də müxalifət tərəfdarlarını və cəmiyyətin digər üzvlərini toplantılarda və ümumilikdə açıq siyasi debatda iştirak etməkdən çəkindirə bilər."

**Tövsiyə xarakterli beynəlxalq sənədlər.** İnsan hüquqları sahəsində fəaliyyət göstərən bir sıra təşkilatlar dövlətlərə sərbəst toplaşmaq azadlığını qorumaqda kömək edəcək rəhbər prinsiplər dərc etdiriblər.

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Bürosu və Avropa Şurası Venesiya Komissiyası tərəfindən "Dinc Toplaşmaq Azadlığına dair Rəhbər Prinsiplər". [19]**

"Bir çox dövlətlər və ya bələdiyyə orqanları, konstitusiya təminatlarından əlavə, ictimai toplantılar barədə xüsusi qanunlar və ya bələdiyyə aktları qəbul ediblər. Belə qanunlar konstitusiyada təsbit olunmuş dinc toplaşmaq hüququnun həyata keçirilməsinə mane olmamalı, əksinə, bu hüququn təmin edilməsinə və qorunmasına yönəlməlidir. Bu baxımdan önəmli məsələ ondan ibarətdir ki, konkret qanun çərçivəsində həddən artıq tənzimləyici və ya bürokratik sistem yaradılmasın. Eyni zamanda qanun layihələrinin hazırlanmasında iştirak edən şəxslər qanunların tətbiqi ilə sıx əlaqəsi olan şəxslərlə və digər maraqlı şəxslər və qruplarla (o cümlədən yerli hüquq müdafiə təşkilatları ilə) həmişə məsləhətləşməlidirlər.

*Hansı toplantılar müdafiə olunur.* Dinc toplantıların bütün növləri – istər hərəkətsiz, istərsə də hərəkətli (küçə yürüşü) toplantılar, eləcə də dövlətə məxsus və ya özəl obyektlərdə və ya tikililərdə keçirilən toplantılar müdafiə olunmağa layiqdirlər.

*"Dinc" dedikdə nə nəzərdə tutulur.* Yalnız dinc toplantılar, eləcə də dinc xarakter daşıyan təsadüfi (spontan) toplantılar müdafiə olunur. Toplantı təşkilatçılarının niyyətləri dinc niyyətdirsə və toplantı qeyri-zorakı xarakter daşıyırsa, o halda toplantı dinc hesab edilməlidir. "Dinc" anlayışı digər şəxsləri qıcıqlandıran və ya heysiyyatına toxunan, hətta üçüncü şəxslərin hərəkətlərinə müvəqqəti mane olan, onları çətinləşdirən və ya qarşısını alan davranışları əhatə edəcək formada şərh olunmalıdır.

*Xəbərdarlıq icraatı.* İnsan hüquqlarına dair beynəlxalq sənədlər milli qanunvericilikdə toplantı barədə qabaqcadan bildirişin verilməsini tələb etmirlər. Açıq cəmiyyətdə bir çox toplantı növləri hər hansı formada rəsmi tənzimləmənin olmasını tələb etmir. Buna görə də toplantı barədə qabaqcadan bildiriş verilməsi yalnız o halda zəruridir ki, dövlətdən toplaşmaq azadlığına şərait

[19] https://www.osce.org/odihr/73405; azərbaycanca - https://www.osce.org/az/baku/89023?download=true

yaratmaqdan ötrü zəruri tədbirlərin görülməsi və ictimai qaydanın, ictimai təhlükəsizliyin, digər şəxslərin hüquq və azadlıqlarının mühafizəsinin təşkil edilməsi tələb olunsun. Bu məsələyə aid istənilən qanunvericilik norması təşkilatçıdan toplantı üçün icazə istəməsini deyil, toplantı keçirmək niyyəti barədə bildiriş verməsini tələb etməlidir.

*Təsadüfi toplantılar.* Hakimiyyət orqanları həmişə dinc xarakterli təsadüfi (spontan) toplantını müdafiə etməli və onun keçirilməsinə şərait yaratmalıdırlar.

*Əks-toplantılar (əks-nümayişlər).* Əks-nümayiş keçirmək azadlığı digər şəxslərin toplantı keçirmək azadlığına qarşı qəbul edilməməlidir. Nümayişçilər digər şəxslərin öz nümayişlərini keçirmək hüququna hörmət etməlidirlər. Bu növ eyni vaxtda keçirilən əlaqəli toplantılar zamanı dövlətin rolu asayişin qorunmasını və mümkün olarsa, nümayişçilərin bir-birini "görmə və eşitmə" məsafəsində yerləşməsini təmin etməkdən ibarətdir.

*Məhdudiyyətlər barədə.* Məhdudiyyətlərə gəldikdə isə onları tətbiq edərkən mütənasiblik prinsipinə əməl olunmalıdır. İctimai toplantılar müəyyən ismarıcların konkret şəxsə, qrupa və ya təşkilata ünvanlanması üçün keçirilir. Buna görə də ümumi qayda bundan ibarətdir ki, toplantıların konkret hədəf auditoriyasının "görmə və eşitmə" məsafəsində keçirilməsinə şərait yaradılmalıdır. Dövlət həmişə təşkilatçıların üstünlük verdiyi yerlərdə ictimai toplantıların keçirilməsinə şərait yaratmalı və təhlükəsizliyi təmin etməli, habelə qarşıdakı toplantılar barədə ictimaiyyət arasında məlumatların maneəsiz yayılmasına zəmanət verməlidir. Ticarət fəaliyyəti, nəqliyyatın və piyadaların hərəkəti kimi səbəblərdən dolayı toplantı keçirilməsinə məhdudiyyət qoyularsa, toplantıların keçirilməsinin də ictimai yerdən qanuni istifadə sayıldığı nəzərə alınmalıdır. Toplantıların çatdırdığı ismarıclara vizual və ya audio məzmununa da məhdudiyyətlər çox mühüm əsasla qoyulmalıdır; onlar yalnız qaçınılmaz zorakılıq təhlükəsi olduqda tətbiq edilə bilər.

*Məsuliyyətə cəlb olunma.* Pozuntulara görə məsuliyyətə cəlb olunmaya gəldikdə isə toplantıların təşkilatçıları həmçinin ayrı-ayrı iştirakçıların, yaxud toplantı iştirakçısı olmayanların və ya təxribatçıların hərəkətlərinə görə məsuliyyətə cəlb olunmamalıdırlar. Polis tərəfində qanunla icazə verilməyən və ya konkret vəziyyətdə lazım olduğundan artıq güc tətbiq edildiyi hallarda isə hüquq-mühafizə orqanlarının əməkdaşları da mülki-hüquqi və (və ya) cinayət məsuliyyətinə, habelə intizam məsuliyyətinə cəlb edilməlidirlər.

*Müşahidəçilər.* QHT-lər və vətəndaş cəmiyyəti təşkilatları demokratik cəmiyyətdə olduqca mühüm "ictimai nəzarətçi" rolunu oynayırlar və buna görə də onlar tərəfindən ictimai toplantıların maneəsiz monitorinqinin aparılmasına hökmən icazə verilməlidir.

*KİV-lərin toplantılara buraxılması.* Kütləvi informasiya vasitələrinin əməkdaşlarının istənilən toplantıya buraxılmasına və ictimai qaydanın təmin edilməsi ilə bağlı istənilən hərəkətləri müşahidə etməsinə maksimum imkan yaradılmalıdır".

**BMT-nin toplaşmaq azadlığı üzrə xüsusi məruzəçisinin tövsiyələri**

Dövlət təsadüfi və əks-toplantılar da daxil olmaqla, toplantıları qorumalı, keçirilməsinə köməklik göstərməlidir, xüsusilə də bütün toplantıların öz hədəflərinin "görmə və eşitmə" məsafəsində keçirilməsinə çalışmalıdır. Ölkələrdə toplaşmaq azadlığını tənzimləyən qanunlar yer və zamana qoyulmuş mütləq məhdudiyyətlərindən çəkinməlidirlər.

Xəbərdarlıq sisteminin mövcud olduğu ölkələrdə, toplantıları məhdudlaşdırmaq ixtiyarı olan qurumun səlahiyyəti həddindən artıq olmamalıdır. Bundan əlavə, əgər toplantı təşkilatçıları lazımi qurumlara xəbərdarlıq göndərməyiblərsə, bu toplantının dərhal dağıdılması üçün səbəb olmamalıdır. Nəqliyyatın axınına mane olması səbəbi də avtomatik olaraq toplantının dayandırılmasına səbəb olmamalıdır.

Təşkilatçılar digər şəxslərin qanuna zidd hərəkətlərinə görə məsuliyyət daşımamalıdırlar. Heç kəs, sadəcə, toplantı təşkil etdiyinə və ya toplantıda iştirak etdiyinə görə inzibati və ya cinayət məsuliyyətinə cəlb olunmamalıdırlar. Hər kəsin toplantıları müşahidə və monitorinq etmək, eləcə də toplantıları çəkmək hüququ var.

Toplantı iştirakçılarına qarşı gücün tətbiq olunması halları istina olmalıdır və hüquq-mühafizə orqanlarının əməkdaşları fərdi şəkildə, açıq-aşkar fərqlənməlidirlər, məsələn, adlarının və ya nömrələrinin qeyd olunduğu lövhələr taxmalıdırlar.

BMT-nin toplaşmaq azadlığı üzrə xüsusi məruzəçisi toplantı iştirakçılarının dövrəyə alınıb, müəyyən ərazini tərk etməyə icazə verilməməsi praktikasına, yəni açıq hava toplantılarının faktiki olaraq hasarlanmış əraziyə məhkum edilməsinə də qarşıdır.

# 4. Sərbəst toplaşmaq azadlığının vəziyyətinin monitorinqi

## 4.1. Siyasi məzmunlu aksiyalara müdaxilələr

### 2016

2016-cı ilin son 4 ayı Konstitusiyaya dəyişikliklər ilə bağlı referendum öncəsi təşviqat kampaniyası zamanı keçirilən görüş-mitinqlər, referendum əleyhinə müxalifət mitinqləri və Biləsuvarda baş vermiş etiraz aksiyası ilə yadda qaldı.

2016-cı ilin 26 sentyabr referendumundan əvvəl iqtidar YAP partiyası ölkənin müxtəlif rayonlarında qapalı və açıq məkanlarda seçicilərlə görüş-mitinq keçirib. Görüşlərə heç bir müdaxilə olmayıb.

Müxalifət mitinqlərinə gəldikdə isə 11 və 17 sentyabrda Demokratik Qüvvələrin Milli Şurası (DQMŞ), 18 sentyabrda Müsavat Partiyası Konstitusiya dəyişiklikləri ilə bağlı referenduma etiraz mitinqi keçiriblər. Mitinqlər Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb. Toplantılar mitinq keçirilməsi üçün müəyyən edilmiş yerlərdən biri olan "Məhsul" stadionunda keçirilib.

İştirakçılar meydana polis yoxlamasından keçərək daxil olublar.[20]

“Azadlıq Radiosu”nun rəsmi “facebook” səhifəsində yazılıb: “Mitinq keçirilən ərazidə internet və mobil rabitə problemi var. Bütün telefonlarda rabitə dayanıb”.[21]

11 sentyabr mitinqində iştirak etmək üçün Bərdədən gələn AXCP üzvləri 15-00-da saxlanılıb və onlara rayon ərazisindən çıxmağa imkan verilməyib.[22]

Milli Şuranın 17 sentyabr mitinqindən sonra gənclərdən bəziləri metronun «İnşaatçılar» stansiyasına doğru irəliləyərkən müxtəlif şüarlar səsləndiriblər. Polis aksiyaçılara qarşı güc tətbiq edib, onları əvvəlcədən gətirdikləri avtobuslara doldurub. 40-dan artıq aksiyaçı tutulub. [23] Saxlanılanlarda 12-nə (Toğrul İbrahim, Ruslan Qara, Nuru Nuruzadə, Elton Əli, Orxan Carçı, Məcnun Pirəliyev, Araz Səməd, Məmməd Baləmmədov, Dəyanət Əliyev, Ülfət Həsənqarayev, Kazım İmanov və Şəmistan Şahverdiyev) 8 sutka inzibati həbs cəzası və birinə isə 200 manat cərimə cəzası verilib.[24]

DQMŞ-a daxil olan AXCP-nin sədr müavini Gözəl Bayramlı “Azadlıq Radiosu”na bildirib ki, Milli Şuranın 26 sentyabr referendumu əleyhinə keçirdiyi iki mitinqdən əvvəl və sonra mitinq iştirakçılarının polisə çağırıldığını, ümumilikdə 185 fəal saxlandığını, saxlanılanlardan 170 nəfərin AXCP fəalı olduğunu və 18 nəfərə 5 sutkadan 30 sutkayadək inzibati həbs cəzası verildiyini bildirib. 3 nəfər cərimə edilib, 5 nəfərə isə məhkəmə qaydasında xəbərdarlıq olunub.[25]

“Meydan Tv”nin jurnalisti Sevinc Vaqifqızı da valideynlərinin Milli Şuranın mitinqində iştirak etdiyinə görə polisə çağırıldığını bildirib.[26]

AXCP sədr müavini Gözəl Bayramlı “Turan” informasiya agentliyinə bildirib ki, 2016-cı ilin sentyabrında keçirilən aksiyada iştiraka görə 4 nəfər - AXCP-nin Qəbələ və Oğuz rayon təşkilatlarının fəalları, məktəblərdə müəllim işləyən İlham Quliyev və Yaşar Məmmədov,mühəndis olan AXCP Goranboy rayon təşkilatının üzvü Qələndər Aslanov və Azər-Yod” MMC müəssisəsində işləyən Elnur Fərəcov işdən çıxarılıb.[27]

Müsavat Partiyasının 18 sentyabr mitinqi zamanı təşkilatçılar bəyan edib ki, partiyanın Salyan, Neftçala, Abşeron və Tərtərdən olan üzvləri polis tərəfindən saxlanılıb. Partiyanın Şirvan şəhəri üzrə sədrinin atasını saxlayıblar. Partiya nümayəndəsi Osman Kazımov çıxış etdiyi vaxt qəfil meydanda işıq kəsilib və səsucaldıcılar işləməyib.[28]

---

[20] https://www.azadliq.info/156364.html
[21] https://www.bbc.com/azeri/azerbaijan-37332690
[22] https://www.azadliq.info/156364.html
[23] https://ok.ru/video/12334007563
[24] https://www.azadliq.org/a/28000545.html
[25] https://www.azadliq.org/a/28021526.html
[26] https://www.meydan.tv/ru/article/sevinc-vaqifqizinin-valideynleri-polise-cagrilib/
[27] https://www.amerikaninsesi.org/a/sosial/3840452.html
[28] https://www.bbc.com/azeri/azerbaijan-37401348

**2017**

**Razılaşdırılmış toplantılar.** DQMŞ "Korrupsiyaya son!", "Monarxiyaya yox!", "Siyasi məhbuslara azadlıq!" və "İstefa" şüarları ilə aprelin 8-də, sentyabrın 23-də, oktyabrın 7-də və 28-də mitinqlər keçirib.

Qeyd edək ki, Milli Şura əvvəlcə aprelin 9-da mitinq keçirmək üçün müraciət edib, daha sonra BŞİH təklifi ilə dəyişib. Mitinqlər Bakı şəhər İcra Hakimiyyəti razılığı ilə Bakının Yasamal rayonu ərazisindəki "Məhsul" stadionunda keçirilib.

Mitinqə gələn iştirakçılar[29] və plakatlar yoxlanılıb, azyaşlılar[30] və təşkilatçıların öncədən elan etdiyi şüarlardan fərqli şüarlar meydana buraxılmayıb.[31] Video görüntülərdə zorakılığa çağırış olmayan plakatlara da məhdudiyyət qoyulduğu müşahidə olunub.[32] Mitinq zamanı işıqların kəsilməsi halları da müşahidə olunub və xüsusilə son iki mitinqdə internetin sürətində problem olub. Buna görə KİV-lər canlı yayım verə bilməyiblər. 28 oktyabr mitinqində Əli Kərimlinin çıxışı zamanı mülki paltarda olan bir neçə şəxs aksiya iştirakçılarının əlində olan bəzi plakatlara irad bildirib və iştirakçılara müdaxilə ediblər. Həmin plakatlar aksiya iştirakçılarının əllərindən alınıb.[33]

AXCP-nin sədri Əli Kərimli "Meydan TV"yə müsahibəsi[34] zamanı bildirib ki, hakimiyyət mitinqin kütləviliyinin qarşısını almaq üçün mitinqin gününü 9-dan 8-ə keçirdib, dövlət müəssisələrində 6-cı gün iməcilik salıb, özəl müəssisələr işçilərin işə gəlməsini tələb edib, tələbələrə universitetlərdən icazə verilməyib. Oktyabrın 7-də keçirilən mitinqdə də AXCP sədri demişdi ki, təkcə bu aksiya öncəsi ümumilikdə 200-ə yaxın fəal polisə çağırılıb.[35]

AXCP Ali Məslisinin sədri Nurəddin Məmmədli "Azadlıq Radiosu"na bildirib ki, Milli Şuranın son üç mitinqində fəal iştiraka və sosial şəbəkələrdə fəallığa görə 500-dən çox insan polisə çağırılıb, həmin şəxslər ya cərimə ediliblər, ya inzibati cəza alıblar, ya da valideynləri və ya qohum-əqrəbalarına qarşı tədbirlər görüləcəyi ilə bağlı hədələniblər".[36]

Milli Şuraya daxil olan AXCP-nin sədr müavini Gözəl Bayramlı "Azadlıq Radiosu"na bildirib: "Neftçala rayon təşkilatının sədri Əflatun Əhmədliyə təzyiqlər var. Onu aprelin 25-də rayonun hüquq-mühafizə orqanlarına dəvət ediblər və Prezident Administrasiyası adından partiyadan çıxmasını istəyiblər"[37].

---

[29] https://www.youtube.com/watch?v=XeMRne5QCe4
[30] https://www.youtube.com/watch?v=7b6luOqOD6M
[31] https://www.youtube.com/watch?v=6Spw4XHZryo
[32] https://www.youtube.com/watch?v=KeyR_wN-ZzY
[33] http://basta2.com/az/2017/10/28/milli-sura-mitinq-kecirir-yenil%C9%99nir-2/
[34] https://www.youtube.com/watch?v=-TwjD7XLf6s
[35] http://toplumtv.org/az/axcp-uzvu-serbest-buraxilib/#.XSjMb-szbtQ
[36] https://www.azadliq.org/a/28850514.html
[37] https://www.azadliq.org/a/aksiya-isden-cixarilma/28452622.html

AXCP-nin Qazax rayon təşkilatının fəallarından Fəzail Əliyev təzyiqlərlə üzləşib. 28 oktyabr mitinqi ərəfəsində polislər yaşadığı yerə gəliblər. Onun "Azadlıq Radiosu"na bildirdiyinə görə, mitinqdə iştirak edəcəyi halda qohumlarının polisə aparılacağını bildiriblər.[38]

Mitinqdən sonra isə işlədiyi və qohumlarına məxsus çayxana bağladılıb, tikintisi hələ başa çatmamış evi isə yüksəkgərginlikli elektrik xəttinin qoruq zonasında yerləşdiyi iddiası ilə sökülüb. Fəzail Əliyev evin bir mərtəbəsinin artıq tikildiyini və hamının da bunu bildiyini deyib.[39]

Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu da "Azadlıq Radiosu"na deyib ki, partiyanın İdarə Heyətinin üzvləri (ADP mətbuat xidmətinin rəhbəri Nurəddin İsmayıl, sədrin birinci müavini Həsrət Rüstəmov və İdarə Heyətinin üzvü Zakir Hüseynov) Milli Şuranın sentyabrın 23-də keçirilən aksiyası ilə bağlı polisə çağırılıblar.

Həsrət Rüstəmov "Azadlıq Radiosu"na bildirib ki, ona mitinq və özü ilə bağlı suallar verilib[40].

Jurnalist Xədicə İsmayıl və anası, keçmiş Müdafiə naziri Rəhim Qazıyev və qardaşı və digər onlarla şəxs də polisə çağırıldıqlarını bildiriblər.

Jurnalist "Turan" informasiya agentliyinə bildirib ki, polisdə öncə ona çağırışın səbəbini "mitinqlərə getməsilə" izah ediblər[41].

Demokratiya və Rifah Hərəkatının üzvü Hüseyn Məliki oktyabrın 3-də Səbail Rayon Polis İdarəsinə çağırıblar.[42]

AXCP sədr müavini Gözəl Bayramlı "Turan" informasiya agentliyinə bildirib ki, 8 aprel mitinqində iştiraka görə orta məktəb müəllimləri Əflatun Əhmədzadə, Ülkər Əhmədzadə, Laçın Əskərli, Cəlil İmanov və Mirağa Musayev işdən azad ediliblər. Lakin Əflatun Əhmədzadə və Ülkər Əhmədzadə sentyabrın 25-də məhkəmənin qərarı ilə yenidən işə bərpa ediliblər.[43] Həmçinin Qaz İstismar İdarəsinin əməkdaşı Əli Abdullayev, SOCAR müəssisələrindən birində baş operator olan Aydın İsalı, "Azəriqaz"da çilingər olan İlkin Əliyev, "Neftçi" idman klubunda administrator olan Novruz Tağıyev, "Azərsu" şirkətinin sürücüsü Elxan Nuriyev, "Səma" MMC-nin satış meneceri Firdovsi Məmmədov, SOCAR-da mühafizəçi olan Məhəmməd Əlifov və "Avropa" MMC-də satış meneceri olan Samir Həsənov işdən çıxarılıb.[44]

AXCP-nin Ağsu rayon şöbəsinin üzvü Mirdamət Həsənov da oktyabrın 2-də işlədiyi Kommunal Təsərrüfat İdarəsindən çıxarılıb. O da səbəb kimi Milli Şuranın 23 sentyabr mitinqində iştirak etməsini bildirib[45]. AXCP-nin Rəyasət Heyətinin üzvü Eldar Hüseynov Dövlət İqtisad Universiteti İnformasiya və İqtisadi Texnologiyalar kafedrasından, cəbhəçi Elmi Usubov isə həkim işlədiyi tibb

[38] https://www.azadliq.org/a/axcp-fezail-eliyev/28846410.html
[39] https://www.contact.az/ext/news/2017/11/free/Social/az/66676.htm
[40] https://www.azadliq.org/a/28771517.html
[41] http://www.turan.az/ext/news/2017/10/free/Social/az/65743.htm
[42] https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/mitinq-istirakcilari-polise-cagirilir/
[43] https://www.azadliq.org/a/mitinq-muxalifet-ishden-qovulanlar/28790293.html
[44] https://www.amerikaninsesi.org/a/sosial/3840452.html
[45] https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/mitinqe-qatilan-fehle-isden-cixarilib/

müəssisəsindən çıxarılıb. Onlar da eyni səbəbi göstəriblər. “Vania Otel”də işləyən Fuad Tağızadə işdən çıxarılıb[46].

Bakının Zirə qəsəbəsində yerləşən 120 saylı poçt şöbəsinin poçtalyonu, AXCP-nin üzvü Mehriban Hüseynli “Meydan TV”yə 7 oktyabr mitinqində iştirak etdiyinə görə işdən çıxarıldığını bildirib[47].

Onlardan əlavə, Bakı Şəhər Təcili Yardım Stansiyasında həkim işləyən Azərbaycan Demokrat Partiyasının (ADP) sədr müavini Həsrət Rüstəmov da oktyabrın 6-da işdən uzaqlaşdırılıb. O, səbəb kimi müxalifətin sonuncu mitinqlərində iştirak etməsi olduğunu söyləyib[48].

Milli Şuranın aksiyasında iştiraka görə Azərbaycan Dövlət Dram Teatrının aktyoru Ayşad Məmmədov da oktyabrın 18-də işdən azad edilib.[49]

Müsavat Partiyası 7 oktyabr mitinqdən öncə rayon fəallarının basqılara məruz qaldığı bildirib. Müsavat Partiyası başqanın müşaviri Ramazan Əliyev Xaçmaz rayon Polis Şöbəsinin aparılıb. Onun Milli Şuranın mitinqi ilə bağlı sorğu-sual edilib.

Ramazan Əliyevin sözlərinə görə, ona deyiblər ki, Milli Şura mitinqində Xaçmaz rayonundan heç kimin iştirak etməsini istəmirlər.[50]

Müsavat Partiyasının Mingəçevir təşkilatının sədri Nurəddin Rüstəmlinin də şəhər polis idarəsinə çağırıldığı və mitinqlə bağlı sorğu sual edildiyi bildirilib.[51]

AXCP-nin mətbuata verdiyi siyahıya[52] əsasən, 23 sentyabr mitinqindən əvvəl 4 AXCP üzvü (Cabbar Savalanlı, Mehdi Nağıyev, Elnur Həsənov və Xətai Nəbiyevin hər biri 51 azn, Xəlqi Hüseyn isə 100 azn) İXM-nin 510-cu, yəni xırda xuliqanlıq maddəsi ilə cərimə edilib. Daha üç AXCP üzvü (Yalçın Abdullayev, Ayaz Məhərrəmli və Elşən Abdullayev) isə İXM-nin 535.1 maddəsi (polisə müqavimət) ilə 200 manat cərimə edilərək sərbəst buraxılıb. 23 sentyabr mitinqindən sonra isə AXCP üzvləri Elşən Abdullayev, Elnur Cabbarlı 200 manat və 22 sentyabr tarixində səhər küçədə divara mitinqlə bağlı vərəqə yapışdırdığına görə polis bölməsinə aparılıb, sonra sərbəst buraxılan Elman Məmmədov 100 manat cərimə edilib.

İXM-nin 535.1- ci, yəni polis işçisinin qanuni əmrinə tabe olmama ittihamı ilə inzibati qaydada həbs edilənlər var. 23 sentyabr mitinqindən əvvəl AXCP-dan 6 nəfər (İlham Hüseyn, Saqif Qurbanov, Bəhruz Həsənli, Aqil Məhərrəmov, Emil Səlimov və mitinq ilə bağlı vərəqə paylayan Etibar Məmmədli) 15 sutka müddətinə, mitinq günü isə Emin Maniyev və Nicat Nizamov 10 sutka müddətində inzibati qaydada həbs edilib. Bundan əlavə, 6 nəfər də (Ramid Nağıyev 25, Yalçın Abdullayev 25, Ruslan Nəsirli 25, Məhərrəm Rzayev 25 və Füzuli Hüseynov 30 sutka) 7 oktyabr

---

46 http://ilkxeber.info/gundem/8493-mitinqe-gore-polise-chagirilan-ve-hebs-edilen-axcp-feallarinin-syahs.html
47 https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/poctalyon-mitinqde-istirakina-gore-isden-cixarildigini-deyir/
48 http://www.contact.az/ext/news/2017/10/free/Social/az/65851.htm
49 https://www.amerikaninsesi.org/a/ayshad-memmedov/4076164.html
50 http://basta2.com/az/2017/10/07/musavat-basqaninin-musaviri-polis%C9%99-aparilib/
51 https://www.azadliq.org/a/milli-shura-mitinq-baki/28779263.html
52 http://ilkxeber.info/gundem/8493-mitinqe-gore-polise-chagirilan-ve-hebs-edilen-axcp-feallarinin-syahs.html

mitinqindən əvvəl inzibati qaydada həbs edilib. Vəkil Əsabəli Mustafayev ittihamları "qondarma" adlanıdırıb[53].

Oktyabrın 9 və 10-da AXCP üzvləri Əlifağa Abdullayevla Eldəniz Səmədov barəsində 15 və10 günlük inzibati həbs cəzası verilib. Vəkili Yalçın İmanov "Azadlıq Radiosu"na adları çəkilən cəbhəçilərin Milli Şuranın oktyabrın 7-də keçirdiyi mitinqinə qatıldıqlarından cəzalandırıldıqlarını güman etdiyini bildirib.[54]

YAP üzvü Oruc Məmmədov da polisə tabe olmama ittihamı ilə 10 sutka inzibati həbs cəzası alıb. Oğlu AXCP üzvü Tofiq Məmmədov isə "Meydan Tv"yə bildirib ki, atasının saxlanılmasına səbəb onun Milli Şuranın mitinqlərində iştirak etməsi və mitinqlərlə bağlı broşürlər paylaması olub[55].

"Ramil Usubov, qardaşın qisasını qardaşdan almağı durdur" şüarı yazılmış plakatı qaldıran Əziz Qəhrəmanova polisə müqavimət ittihamı ilə 20 sutka inzibati həbs cəzası verilib.[56]

"Müsəlman Birliyi" Hərəkatının həbsdə olan sədri Taleh Bağırzadənin tərəfdarı, dindar Rəvan İsmayıl polisin qanuni tələbinə tabe olmamaq ittihamı ilə 30 sutka inzibati həbs edilib.

Bu barədə "Meydan TV"yə məlumat verən vəkil Yalçın İmanov polis bölməsində Rəvan İsmayıla "Milli Şuranın mitinqlərinə niyə qatıldığını, Taleh Bağırzadəni niyə müdafiə etdiyini" soruşduqlarını qeyd edib[57].

Vəkil Yalçın İmanov "Meydan TV"yə "Müsəlman Birliyi" Hərəkatının digər üzvü Əhsən Nuruzadənin də həbsi barədə məumat verib və "Milli Şuranın təşkil etdiyi mitinqlər arası həbs olunmağı da onun ictimai-siyasi fəaliyyətinə görə həbs olunduğunun göstəricisi" olduğunu qeyd edib.[58]

**Razılaşdırılmamış toplantılar.** Oktyabrın 21-də yürüş keçirmək üçün BŞİH-dən razılıq ala bilməyən Müsavat Partiyası oktyabrın 30-da BŞİH qarşısında piket keçirmək üçün müracitə edib. "Ümumiyyətlə, Azərbaycan Respublikası rayon və şəhər icra hakimiyyəti orqanlarının inzibati binalarının ətrafında 200 metr radius çərçivəsində toplantıların keçirilməsi məhdudlaşdırılır", - deyə icra hakimiyyəti mənfi cavab verib. Daha sonra noyabrın 3-də piket üçün yenidən müraciət göndərilib. İcra Hakimiyyəti piketə icazə verməməsini Bakı şəhərində nəqliyyatın sayının artmasını, aksiyanın nəqliyyatın və piyadaların hərəkətinə mane olacağı ehtimalını əsas gətirib.

Rədd cavabı almağına baxmayaraq noyabrın 3-ü Müsavat Partiyasından 40-50 nəfər fəal BŞİH qarşısında toplaşıb və piket keçirib[59]. Piket zamanı çəkilmiş video görüntüdə[60] görsənir ki, piket

[53] http://toplumtv.org/az/vekil-saxlanilan-feallarla-grusub/#.XSblrOszbtQ
[54] https://www.azadliq.org/a/28790122.html
[55] https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/axcp-uzvunun-atasi-inzibati-ceza-alib/?ref=article-related-artciles
[56] https://basta2.com/az/2017/11/03/mitinqind%C9%99-usubova-qarsi-plakat-qaldiran-musavatciya-20-sutka-h%C9%99bs-c%C9%99zasi-verildi/
[57] https://www.meydan.tv/ru/article/daha-bir-dindar-hebs-edilib/
[58] https://www.youtube.com/watch?v=qX5rol_qYtk
[59] https://basta2.com/az/2017/11/03/musavatcilar-saxlanildi-siyahi/
[60] https://www.youtube.com/watch?v=C_anZyZ6SCw

zamanı polis tərəfindən müdaxilə olmasa da, piket bitdikdən sonra insanların əllərindən plakatlar zorla alınıb, dinc aksiya iştirakçılarında 9 nəfər (Səxavət Soltanlı, Müstafa Hacıbəyli, Əbülfəz Sadıqbəyli, Zeynal Zeynallı, Vidadi Zamanov, Elman Fəttah, Əziz Məmiyev, Rəhim Yaqublu, Tofiq Yaqublu) saxlanılıb və jurnalist çəkilişinə polis əməkdaşları tərəfindən maneə törədilib. Onu da qeyd edək ki, Müsavat Partiyasının yürüş qərarı verdikdən sonra, oktyabrın 17-dən etibarən qərargaha gələnləri polislər sorğu-sual etməyə başlayıblar və Bakı şəhər Baş Polis İdarəsinin rəis müavini Səhlab Bağırov APA-ya deyib ki, "icazəsiz heç bir aksiyaya imkan verilməyəcək".

Musiqili Komediya Teatrında rəqs (balet) truppasında çalışan, müsavatçı Seymar Namazov noyabrın 3-də Bakı şəhər İcra Hakimiyyətinin binası qarşısında keçirilən piketdə iştirakından sonra işdən çıxarıldığını bildirir.[61]

24 iyulda bir qrup cəbhəçi AXCP sədrinin müavini Gözəl Bayramlının səhhətinin pisləşməsinə etiraz olaraq "Gözəl Bayramlının dərmanlarını verin!", "Siyasi Məhbuslara azadlıq!", "İşgəncələrə son!" şüarları ilə Ədliyyə Nazirliyi önündə aksiya keçirib.[62] Aksiyaya polis müdaxiləsi olub, aksiyaçıların plakatları əllərindən alınıb. Aksiyanın lentə alınmasına maneə yaradıldığı bildirilib. Polis güc tətbiq edib, aksiya iştirakçılarından 7 nəfər saxlanılıb və bir müddət sonra sərbəst buraxılıb.[63]

Avqustun 9-da Nardaran hadisələrində həbs olunan Abbas Hüseynovun vəkilinə işgəncələrə məruz qalması barədə verdiyi məlumatdan sonra bir qrup dindar Penitensiar Xidmətin qarşısında aksiya keçirmək istəyib, amma polislər Penitensiar Xidmətə gedən yolları bağlayıblar, buna görə də aksiya baş tutmayıb.[64]

Bundan əvvəl avqustun 6-da "Müsəlman Birliyi" Təşkilatının üzvləri Taleh Bağırzadə, Abbas Hüseynov və Cabbar Cabbarovun "kars"a salındığını, Taleh Bağırzadəyə işgəncə edildiyini iddia edərək Qobustan Qapalı Cəzaçəkmə Müəssisəsinin önünə toplaşıblar.[65]

Bir qrup gənc fəal «Facebook» şəbəkəsində Bakıda «Siyasi məhbuslara azadlıq!» şüarı ilə aksiya keçirəcəklərini açıqlayıblar. Aksiya anonsundan sonra, avqustun 11-də AXCP Sumqayıt şöbəsinin fəalı Ruslan Qara polisin qanunu tələbinə əməl etməmək ittihamı ilə 20 sutka inzibati həbs cəzasına məhkum edilib.

Avqustun 17-də Demokratik Gənclər Təşkilatının rəhbəri İsmayıl İslamoğlu, Azad Azərbaycan Təşkilatının sədri Ağaşirin Tarverdioğlu və gənc fəal Dəyanət Babayev BŞBPİ-nə çağırılıb, onlara aksiya keçirəcəkləri təqdirdə saxlanacaqları barədə xəbərdarlıq edilib. Hətta İsmayıl İslamoğlunun "Azadlıq Radiosu"na dediyinə görə, onun polisə gəlməsini təmin etməkdən ötrü atasını Şirvan Şəhər Polis İdarəsinə aparıblar.[66]

---

[61] https://www.azadliq.org/a/musavat-piket/28835915.html
[62] https://www.azadliq.org/a/28637659.html
[63] https://www.youtube.com/watch?v=WBCd7mRB4_8
[64] https://www.youtube.com/watch?v=F_FcLnsgT2Y
[65] https://basta2.com/az/2017/08/06/tale-bagirzad%C9%99-t%C9%99r%C9%99fdarlari-c%C9%99zac%C9%99km%C9%99-mu%C9%99ssis%C9%99sinin-onund%C9%99-etiraz-etdil%C9%99r-video/
[66] https://www.azadliq.org/a/28681973.html

**2018**

**Razılaşdırılmış toplantılar.** 2018-ci ildə Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirildi. Bu məqsədlə hakim YAP partiyası 60-dan çox rayon və şəhərdə təşviqat kampaniyası çərçivəsində açıq və qapalı məkanlarda mitinq-görüş və mitinq-konsertlər keçirib. Toplantıların keçirilməsi üçün tələb olunan xəbərdarlıq icraatı barədə məlumat əldə etmək mümkün olmayıb. Toplantılar müdaxiləsiz başa çatıb.

Müxalifət partiyalarına gəlincə, Milli Şura və Müsavat Partiyası bu il birgə və razılaşdırılmış mitinqlər keçiriblər. Martın 10-da "siyasi məhbuslara azadlıq" və digər tələblərlə, martın 31-də aprelin 11-nə təyin olunmuş növbədənkənar prezident seçkilərinə qarşı etiraz və aprelin 14-də yenə seçkiyə etiraz mövzusunda mitinqlər keçirib.

10 mart mitinqi zamanı da internetdə tez-tez kəsintilər yaşandığından jurnalistlər aksiyanın gedişindən canlı yayım verə bilməyiblər.

AXCP-dən "Azadlıq radiosu"na verilən məlumata görə,[67] görə, mitinqdən öncə bir çox fəallar polisə çağırılaraq hədələnib.

Müsavat Partiyası rəhbərliyi də 20-dən çox fəalının və partiyanın Mərkəzi İcra Aparatının rəhbəti Gülağa Aslanlının da polisə çağrıldığını açıqlayıb.[68]

NİDA Vətəndaş Hərəkatının rəhbərliyindən Əbülfəz Qurbanlı da bildirib ki, hərəkatın 20-yə yaxın üzvi polis şöbələrinə çağrılıb, yaxud sahə müvəkkilləri onlara mitinqə getməmək xəbərdarlığı verib.[69]

AXCP üzvlərindən 6 nəfərin isə polisin qanuni tələbinə tabe olmamaq ittihamı ilə inzibati həbs edildiyi bildirilib (Aqil Məhərrəmli, Tahir Ağayev, Yalçın Abdullayev və Hikmət Əliyev 15 sutka, Faiq Nağıyevlə Bəşir Tarverdiyev isə 20 sutka).

Vəkil Əsabəli Mustafayev "Azadlıq Radiosu"na bildirib[70] ki, bu inzibati cəzalar cəbhəçilərin mitinqdə iştiraklarının qarşısını almaq məqsədilə verilib.

31 mart mitinqinin keçirildiyi ərazidə internet bağlantısında yenə tez-tez kəsiltilər meydana gəlib, buna görə də, aksiyanın canlı yayımlanmasında problem yaşanıb.[71] Mitinq zamanı aksiya iştirakçılarının başı üzərində kimə məxsus olduğu bilinməyən dron dövr edib[72].

Əli Kərimli "ATƏT nümayəndələri müşahidə apardığına görə mitinqə müdaxilənin az olduğunu", lakin onlarla fəalın polisə çağırıldığını, AXCP-nin üç fəalının polisin qanuni tələbinə tabe

[67] https://www.azadliq.org/a/mitinq-saxlananlar/29091249.html
[68] https://www.amerikaninsesi.org/a/siyasi/4283933.html
[69] https://basta2.com/az/2018/03/12/axcp-nin-6-f%C9%99alina-inzibati-h%C9%99bs-c%C9%99zasi-verilib/
[70] https://www.azadliq.org/a/29097985.html
[71] https://www.azadliq.org/a/mitinq-milli-shura-baki/29136988.html
[72] https://www.azadliq.org/a/milli-shura-mitinq-baki-fotolar/29137223.html

olmamaqda ittiham ilə inzibati qaydada həbs olunduğunu bildirib (Abdulla Mahmudov 30 sutka, Ayaz Qasımov 15 sutka, Orxan Baxışlı 30 sutka).[73]

Vəkil Əsabəli Mustafayev "Meydan TV"yə Ayaz Qasımovun mitinqə çağırış vərəqəsi paylayarkən saxlanıldığını bildirib.[74]

14 aprel tarixindəki birgə mitinqindən əvvəl təşkilatçılardan 6 nəfər (Saqif Qurbanov, Vidadi Guliyev, İsmayıl Həsənov, Baba Suleymanov, Əli İmanxanlı və Ruslan Nəsirli) saxlanılıb və məhkəmə barələrində "polisin qanuni tələbinə tabe olmama ittihamı" ilə 15 sutka inzibati həbs qərarı verilib.

İradə Nəriman "Azadlıq radiosu"na bildirib[75]: "AXCP Şəki şöbəsinin 7 fəalını da polis yolda saxlayıb. Onları Xırdalanda Abşeron Rayon Polis İdarəsinə aparıblar, aksiyanın bitməsinə az qalmış Şəkiyə geri qaytarıblar".

Sentyabrın 29-da Bakıda, "Məhsul" stadionunda Qarabağ Azadlıq Təşkilatı (QAT) və bəzi siyasi-ictimai xadimlərin təşkilatçılığı ilə "Qarabağa azadlıq!" çağırışı ilə razılaşdırılmış mitinq keçirilib.[76]

**Razılaşdırılmamış toplantılar.** Martın 10-da Gələcək Azərbaycan Partiyasının bir qrup gənc fəalı Bakının Fəvvarələr meydanında prezident seçkilərinin 6 ay irəli çəkilməsinə və prezidentlik müddətinin 5 ildən 7 ilə artırılmasına etiraz edərək "Azad seçki" şüarı ilə etiraz aksiyası keçirməyə cəhd göstərib.

Partiyanın sədri Ağasif Şakiroğlunun "Amerikanin Səsi"nə deyib ki, 8 fəalı polisə çağırılaraq izahat alınıb, xəbərdarlıq edilərək azad buraxılıb, fəallardan Zaman Mirzəməmmədov isə Nərimanov Rayon Məhkəməsi tərəfindən xuliqanlıq ittihamı ilə inzibati qaydada 100 manat cərimə olunub.[77]

Avqustun 21-də kiçik bir qrup AXCP fəalları həbsdə olan AXCP-lilərə ailələri ilə görüş verilməməsinə, telefonla danışmaq hüququnun məhdudlaşdırılmasına etiraz olaraq metronun «Elmlər Akademiyası» stansiyasının qarşısında aksiya keçiriblər. Aksiya iştirakçılarından dörd nəfər saxlanılıb, sonra onlardan biri buraxılıb. Digər üç nəfər isə İnzibati Xətalar Məcəlləsinin 535.1 (polisin qanuni tələbinə tabe olmamaq) maddəsiylə ittiham olunub. Onlardan iki nəfər barəsində inzibati həbs (Ramin Əhmədov 15 sutka və Bəşir Tanrıverdiyevə isə 10 sutka), bir nəfər barəsində isə cərimə (Nicat Abdullazadəyə 200 manat) qərarı verilib.

---

[73] https://www.amerikaninsesi.org/a/hebs/4325588.html
[74] https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/axcp-uzvlerinin-mitinqe-gore-hebs-edildiyi-deyilir/
[75] https://www.azadliq.org/a/milli-shura-mitinq-din-yalan/29168454.html
[76] https://www.amerikaninsesi.org/a/siyaset/4592507.html

[77] https://www.amerikaninsesi.org/a/siyaset/4321971.html

N.Abdullazadə "Azadlıq Radiosu"na onların dinc şəkildə aksiya keçirdiklərini və polis dediklərinə əməl edib müqavimətsiz bölməyə gəldiklərini bildirib.[78]

**2019**

**Razılaşdırılmış toplantılar.** Milli Şura yanvarın 19-da bloger Mehman Hüseynov (M. Hüseynov ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma maddəsi ilə ittiham olunaraq 2 il müddətində azadlıqdan məhrum edilib, azadlığa çıxmasına iki ay qalmış yeni ittihamla - həbsxana işçisinə xəsarət yetirmək ittihamı ilə - üzləşib.) və siyasi məhbuslar üçün azadlıq şüarları ilə mitinq keçirib. İştirakçıların gətirdikləri plakatlara məhdudiyyət qoyulub, üzərində siyasi məhbusların şəkli və "siyasi məhbuslara azadlıq" şüarı yazılan bəzi plakatlar içəri buraxılmayıb.[79]

BŞBPİ mitinqdən sonra açıqlamasında ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulması halları qeydə alınmadığı bildirsə[80] də, 21 yanvarda Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov "Report"a müsahibəsində:[81] "Sonuncu mitinqlərində, onlar əsl niyyətlərini ortaya qoyub paytaxtda asayişi pozmağa, iğtişaşlar yaratmağa cəhdlər etdilər. Sözsüz ki, bu cür qanunazidd hərəkətlərin qarşısı tərəfimizdən yerindəcə alındı. Ona görə də belələrinə kütləni idarə edə biləcəkləri vaxtadək hər hansı toplantı keçirməyə icazə verilməməsi ilə bağlı Bakı şəhər İcra Hakimiyyəti qarşısında vəsatət qaldıracağam", - deyə bildirib.

Yanvarın 22-də isə mitinqinin təşkilatçıları Bakı Şəhər Baş Polis İdarəsinə (BŞBPİ) dəvət ediliblər. AXCP Rəyasət Heyətinin üzvü İlham Hüseynin dediyinə[82] görə, idarə rəisi yanvarın 19-da keçirilən mitinqdə qanunazidd hərəkətlər olduğunu, sahibkarlar və bəzi sakinlərdə narazılıqlar yarandığını bildirib.

*Sanksiyalar*. Mitinqdən öncə, yanvarın 17-də AXCP "Azadlıq Radiosu"na bildirib ki, "Saatlı rayon şöbəsinin fəalları təzyiqlərə məruz qalıblar"[83]. Daha sonrakı açıqlamasında[84] Partiya mitinqdən öncə 13 nəfərinin inzibati həbs cəzası aldığını bildirib. Onlardan Fərid Əsədov 10 sutka, Rəmzi Şıxəliyev 15 sutka, Kamran Əmirov 17 sutka, 4 nəfər (Emil Səlimov, Nicat Abdullayev, Nicat Nizamov, Saqif Qurbanov) 20 sutka, 3 nəfər (Elşən (Bəyləroğlu) Təhməzov, Ruslan Əmirov, Ramid Nağıyev) 23 sutka, 3 nəfər isə (Paşa Umudov, Bəxtiyar İmanov, Namiq Abbasəliyev) 30 sutka inzibati həbs cəzası alıb.

Müsavat Partiyası da mitinqdən 18 yanvarda "Azadlıq Radiosu"na bildirib[85] ki, Müsavat üzvləri də təzyiqlərə məruz qalır. Bakının Nərimanov rayon təşkilatından Namiq Niftiyev, Qubadlı rayon təşkilatından Nazim Azadoğlu polis idarəsinə çağırılıb, Salyan rayonundan Valeh Hümmətoğuna, Bakıdan Yusif Tağıyevə və Qəbələ rayonundan İmran İsayevə də xəbərdarlıq edilib, Müsavat

78 https://www.azadliq.org/a/29444907.html
79 https://www.youtube.com/watch?v=UmBHtd_Yi0c
80 https://mia.gov.az/index.php?preview/az/news/view/1265/
81 https://report.az/hadise/mirqafar-seyidov-milli-suranin-mitinqine-icaze-verilmemesi-ile-bagli-baki-seher-i-cra-hakimiyyeti-qarsisinda-vesatet-qaldiracagam/
82 https://www.azadliq.org/a/polis-mitinqcileri-cagirir/29724530.html
83 https://www.azadliq.org/a/saatli-xalq-cebhesi-polis/29715813.html
84 https://www.azadliq.org/a/axcp-nin-4-uzvunden-xeber-yoxdur/29720137.html
85 https://www.azadliq.org/a/feallar-polise-cagirilir/29717723.html

Partiysı Gənclər Komitəsinin üzvü Elman Quliyevin isə 15 sutka inzibati həbs cəzası alıb[86]. Yanvarın 23-də isə Müsavat Partiyasının fəalı, keçmiş məhbus Elvin Abdullayevə İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (polisin qanuni əmrinə tabe olmamaq) maddəsi ilə 25 sutka inzibati həbs cəzası verilib.[87]

Aksiya iştirakçılarının polisə çağırıldığı bildirilir. AXCP üzvü Şakir Məmmədov "Azadlıq Radiosu"na polislərin çağırış vərəqəsiz gəlib onu evdən götürdüklərini, polis bölməsində 20-dək AXCP üzvü və bitərəf siyasi fəalla rastlaşdığını, polislərin ondan 19 yanvar harada olduğu soruşduğunu bildirib.

Müsavat Partiyasının Divan üzvü Alya Yaqublu da "Azadlıq Radiosu"na bildirib ki, özü və tanıdığı müsavatçılar polisə çağırılıblar, bəzilərini evlərindən aparıblar, mitinqdə iştirak edib-etmədiyi barədə sorğu-sual edib və polislər bir çox insanların gözünü qorxutmağa çalışıblar.

Müsavat Partiyasının fəalı Nigar Həzi "facebook" paylaşımında[88] polisin ona zəng etdiyini, on ildir işlətdiyinin nömrəsinin oğurluq telefonla əlaqəli olduğunu bildirib.

Müsavat Partiyasının mətbuat xidmətinin rəhbəri, bastainfo.az saytının redaktoru Mustafa Hacıbəyli də "Azadlıq Radiosu"na bildirib[89] ki, ona Binəqədi Məşğulluq Mərkəzindən zəng vurulub, işləyib-işləmədiyi və yanvarın 19-da keçirilən aksiyada iştirak edib-etmədiyi ilə maraqlanıblar.

M.Hacıbəyli oxşar zəngin tanıdığı başqa mitinq iştirakçılarına da olduğunu qeyd edib. AXCP-in Beyləqan şöbəsinin üzvü Seymur Həsənov da "facebook" paylaşımında[90] məşğulluq idarəsindən ona da iş təklif edildiyini bildirib.

"Kriminal Press" informasiya agentliyi rəsmi facebook səhifəsində Salyandan Bakıya gələn 70-ə yaxın müxalifətçinin polis idarəsinə aparılaraq, hədə-qorxu gəlindiyi və Bakıda, Sumqayıtda yaşayanların telefonlarına zəng edib yerli polis idarəsinə çağırıldığı bildirilib[91].

"Amerikanın səsi" saytının "facebook" səhifəsində "Mitinqdə iştirak etdiyiniz üçün polisdən zəng almısınızmı?" sualına cavab olaraq onlarla şəxs şərhlərdə polis məntəqəsindən onlara edilən zənglər barədə yazıb.[92]

**Razılaşdırılmamış toplantılar.** Yanvarın 3-ü Bakıda, bir qrup siyasi və ictimai fəal metronun "Neftçilər" stansiyasının yaxınlığında "Mehman Hüseynova azadlıq!", "Siyasi məhbuslara azadlıq!" şüarları ilə razılaşdırılmamış piket keçirməyə cəhd edib. Polis aksiyaya müdaxilə edib,

---

[86] https://www.azadliq.org/a/axcp-nin-4-uzvunden-xeber-yoxdur/29720137.html
[87] https://www.amerikaninsesi.org/a/m%C3%BCsavat-f%C9%99al%C4%B1na-25-sutka-inzibati-h%C9%99bs-c%C9%99zas%C4%B1-/4755275.html
[88] https://m.facebook.com/story.php?story_fbid=932770526921547&id=100005658253894
[89] https://www.azadliq.org/a/mitinqe-gedenlere-ish-teklifleri-olunur/29748700.html
[90] https://m.facebook.com/story.php?story_fbid=387623555117753&id=100016103356089
[91] https://m.facebook.com/story.php?story_fbid=957588031105048&id=351395268390997
[92] https://m.facebook.com/story.php?story_fbid=2732626090095925&id=286379721387253

iştirakçıların plakatları əllərindən alınıb, jurnalistlərin çəkilişinə müdaxilə edilib və bir neçə nəfər saxlanılıb[93].

Jurnalist Sevinc Vaqifqızı "Azadlıq Radiosu"na verdiyi müsahibədə[94] polislərin kobud rəftar etdiyini bildirir: "54 yaşlı Elmixan Ağayevin qolunu burmuşdular, tərpədə bilmirdi. Gülnarənin gödəkcəsini cırmışdılar. Pərvin tutulan zaman başı yerə dəymişdi və polis bölməsində iki dəfə huşunu itirib yerə yıxıldı. Səxavət Nəbiyev və Fatimə Mövlamlı polis maşınında döyülüb və təhqir olunub"[95]. Saxlanılanlar İnzibati Xətalar Məcəlləsinin 513.2 (yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri və piketlərin təşkili, keçirilməsi qaydasının pozulması) maddəsi ilə ittiham olunublar. Onlardan 4 nəfər (Sevinc Vaqifqızı, Gülnarə Akifqızı, Yeganə Əliyeva, Dilarə Miriyeva) şifahi xəbərdarlıqdan sonra buraxılıb, 3 nəfər barəsində (Pərvin Abuşova, Mətanət Mahmırzayeva və Fatimə Mövlamlı) isə 300 manat məbləğində cərimə və 2 nəfər (Səxavət Nəbiyev və Elimxan Ağayev) barəsində 20-21 sutka inzibati həbs qərarı verilib.[96]

Yanvarın 6-da bir qrup gənc fəal bloger Mehman Hüseynova dəstək məqsədilə Apelyasiya Məhkəməsinin qarşısında toplantı keçirmək istəyiblər. Polis cəhdin qarşısını alıb. Əraziyə cəlb olunmuş mülki geyimli polislər aksiyanın təşkilatçısı Mete Türksoyu və 10-a yaxın aksiya iştirakçısını saxlayaraq, avtomobillərə mindirərək ərazidən uzaqlaşdırıblar.

Saxlanılan İlkin Hüseynovun həyat yoldaşı Leyli Qafarova "Meydan tv"-yə müsahibəsində[97] bildirib ki, "Aksiya heç baş verməmişdi, sadəcə dayanan yerdə, aksiya olmayan yerdə uşaqları basıb aparıblar." İnzibati Xətalar Məcəlləsinin 513.1 və 513.2 (yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri və piketlərin təşkili, keçirilməsi qaydasının pozulması) maddəsi ilə Mete Türksoya 25, Qoşqar Əhmədova 20, İsmayıl İslamoğluna da 20 sutka inzibati həbs cəzası verilib və Bəxtiyar Məmmədov, Orxan Məmmədov, Elçin Rəhimzadənin hər biri 400 manat, Yaşar Xaspoladov isə 450 manat cərimə edilib.[98]

Yanvarın 11-də AXCP-nin Salyan şöbəsinin üzvləri həbsdə olan bloger Mehman Hüseynova azadlıq şüarı ilə aksiya keçirdikdən sonra onlardan 5 nəfər saxlanılıb. Saxlanılanlardan Əlizamin Salayevə 25, Tariyel Məlikzadəyə isə 20 sutka inzibati həbs cəzası verilib[99]. Məhkəmə Şahin Məhərrəmlini 200 manat, Əlizadə Kazımovu 60 manat cərimə edib.[100]

---

93 http://www.turan.az/ext/news/2019/1/free/Social/az/77779.htm

94 https://www.azadliq.org/a/mehmana-azadl%C4%B1q-y%C3%BCr%C3%BC%C5%9F%C3%BCn%C9%99-g%C3%B6r%C9%99-h%C9%99bs-cazas%C4%B1-alanlar-var/29691056.html

95 https://m.facebook.com/story.php?story_fbid=10215800020347710&id=1660506032

96 https://mikroskopmedia.com/2019/01/04/mehman-huseynova-d%C9%99st%C9%99k-aksiyasinda-saxlanilanlara-sutkaliq-h%C9%99bsl%C9%99r-verilib/

97 https://www.youtube.com/watch?v=0m2uuLmAqPI

98 http://www.contact.az/ext/news/2019/1/free/Social/az/77853.htm

99 https://www.azadliq.org/a/salyanda-cebhechiler-hebs-edildiyi-deyilir/29705814.html

100 https://www.amerikaninsesi.org/a/salyanda-bloger%C9%99-azadl%C4%B1q-t%C9%99l%C9%99b-ed%C9%99nl%C9%99r-h%C9%99bs-edilib-/4739984.html

BŞİH Milli Şuranın 26 yanvar mitinqinə icazə verməməsinə baxmayaraq, həmin bir qrup insan mitinqin keçiriləcəyi "Məhsul" stadionuna gəlmişdi. Video görüntüdə[101] polisin dinc sakinlərə güc tətbiq edərək onları saxladığı görünür.

"Azadlıq Radiosu"nun verdiyi məlumata görə, saxlanılan şəxslərdən 10 nəfərinin inzibati qaydada həbs edilib, 5 nəfərin xəbərdarlıq edildikdən sonra sərbəst buraxılıb[102].

Martın 19-da 50-yə yaxın fəal Fəvvarələr meydanında toplaşmağa çalışıblar[103]. Toplantı zamanı hakimiyyətə müxtəlif məsələlərlə bağlı etirazlar ediləcəyi nəzərdə tutulurdu[104]. 10-a yaxın şəxs saxlanılıb.

Kiçik bir qrup gənc fəal aprelin 11-də keçmiş prezident Heydər Əliyevin heykəlinin üstünə "qul bayramınız mübarək" sözlərini yazan və narkotik maddələrin dövriyyəsində ittihamı ilə 10 il həbs cəzası alan gənc fəal Bayram Məmmədovun Prezidentin əfv fərmanı ilə azadlığı çıxdıqdan sonra yenidən saxlanılması və işgəncə məruz qalması iddialarına etiraz etmək üçün razılaşdırılmamış yürüş[105] keçirdiblər.

Polis dinc yürüş iştirakçılarına bir neçə dəqiqə sonra müdaxilə edib, əllərindəki plakatları alıb və 3 nəfəri (Fatimə Mövlamlı, Gülnarə Rəhimova və Amid Həsənov) saxlayıb. Polis maşınına aparılarkən F.Mövlamlı şüarlar səsləndirməyə davam edib və bu zaman bir mülki şəxs əli ilə onun ağzını bağlayıb[106].

## 4.2. Sosial məzmunlu aksiyalara müdaxilələr

Sosial məzmunlu aksiyalar əsasən spontan aksiyalar olur, xəbərdarlıqsız keçirilir.

**2016**

Oktyabrın 15-də Göyçay rayonunun bir qrup sakini yol polisi rəisinin fəaliyyətinə etiraz etmək üçün aksiya keçiriblər. Bu aksiyadan sonra rayon sakini Çingiz Mayılova barəsində İnzibati Xətalar Məcəlləsinin 513-cü maddəsi (Toplantıların təşkili və keçirilməsi qaydasının pozulması) ilə 20 sutkalıq həbs cəzası verilib. Oğlu Sadiq Mayılov "Azadlıq Radiosu"na bildirib[107]: "Aksiya obyektimizə yaxın olduğundan biz də başqaları kimi, istər-istəməz, iştirakçıya çevrilmişik. Ancaq kimisə ora çağırmaq, adamları toplamaq – atama qarşı bu ittihamlar saxtadır".

Aksiya iştirakçıları isə "Azadlıq Radiosu"na bildiriblər ki, Çingiz Mayılovun saxlanmasının əsl səbəbi aksiyadan video və fotolar çəkərək xəbər saytlarına ötürməsi olub.[108]

---

[101] https://www.facebook.com/MeydanTelevision/videos/498038410723401/
[102] https://www.azadliq.org/a/yurush-kechirmek-isteyen-10-nefer-saxlanilib/29733610.html
[103] https://www.youtube.com/watch?v=BV3JR_WyUbI
[104] https://www.azadliq.org/a/f%C9%99vvar%C9%99l%C9%99r-meydan%C4%B1nda-saxlananlar-olub/29829778.html
[105] https://www.youtube.com/watch?v=xdRGbFYpPNg
[106] https://www.azadliq.org/a/bayram-m%C9%99mm%C9%99dova-g%C3%B6r%C9%99-aksiyada-saxlananlar-var/29874793.html
[107] https://www.azadliq.org/a/goycay-aksiya-yol-polisi/28060669.html
[108] https://www.azadliq.org/a/goycay-aksiya-yol-polisi/28060669.html

Dekabrın 22-də Biləsuvarda məskunlaşan Cəbrayıllı məcburi köçkünlərin yaşadıqları qəsəbələrdə işığın tez-tez kəsilməsi etiraza səbəb olub.[109]

Daxili İşlər Nazirliyinin Mətbuar Xidmətinin yaydığı məlumata əsasən[110], xidməti vəzifələrini yerinə yetirən 9 polis əməkdaşına daş və ağac parçaları ilə müxtəlif dərəcəli bədən xəsarətləri yetirib, habelə, 1 xidməti avtomobilin şüşələrini sındırıblar.

Aksiya iştirakçılarından bəzilərinin vəkili olan Elçin Sadıqov isə "Amerikanın Səsi"nə saxlanılan şəxslərin 10 nəfər olduğunu və onun müdafiə etdiyi iki şəxs (Cəlal Quliyev və Zaur Feyruzlu) barəsində Cinayət Məcəlləsinin 186.2-ci (başqasının əmlakına qəsdən ziyan vurmaq), 233-cü (iğtişaşlar törətmək) və 315-ci (hakimiyyət nümayəndəsinin əmrlərinə tabe olmamaq) maddələrilə ittiham irəli sürüldüyünü qeyd edib[111].

"Aksiyada fəallıq edən" 3 nəfər - Gülağa Əliməmmədov, Cəlal Quliyev və İlkin İsgəndərov barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib. Onlar CM-in 186.2, 233 və 315.2-ci maddələri ilə ittiham edilib.

Aksiyada iştirakına görə barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilən Ülvi Quliyevin atası Məhəmməd Quliyev etirazın böyüməsinə polis əməkdaşlarının davranışının da səbəb olduğunu, onların insanlara qarşı kobud davrandığını, nalayiq ifadələr işlətdiyi bildirib. Rayon İcra Hakimiyyətinin və bir xidməti avtomobilin daşa basılması haqqında isə o, "adi gündə RİH yanında bir daş belə tapılmadığını, amma aksiya günü orada bir yük maşını qədər yumru daşlar olduğunu və daş-qalaq edilən avtomobilin xidməti deyil, aksiya iştirakçılarının üstünə sürülən adi avtomobil olduğunu" bildirib.[112]

**2017**

Aprelin 12-də sakinlər "Sovetski" deyilən ərazidə ötən əsrin əvvəllərində tikilən "Hacı Cavad" məscidi söküntüsünə etiraz edib və mane olublar. Sakinlər "Meydan TV"yə 7 nəfər saxlanıldığını və daha sonra azadlığa buraxıldığını bildirib[113].

Avqustun 10-da isə Yasamalda bir qrup sakin ağacların kəsilməsinə etiraz ediblər. Etiraz edənlərdən 3 nəfər saxlanılıb.[114]

20 sentyabrda Masallı rayonunda bir qrup şəxs kənd məktəbinin bağlanmasına etiraz ediblər. Polis aksiya iştirakçılarına müdaxilə edib, bəzilərini saxlayıb. Aksiya iştirakçısı "Meydan TV"yə müsahibəsində[115] polisin onlara xəsarət yetirdiyini bildirib.

**2018**

---

109 https://www.amerikaninsesi.org/a/sosial/3648055.html
110 https://www.mia.gov.az/index.php?/az/news/view/1045/
111 https://www.amerikaninsesi.org/a/sosial/3653756.html
112 https://www.amerikaninsesi.org/a/etiraz/3656754.html
113 https://www.youtube.com/watch?v=pqYtUxpMUxs
114 https://www.youtube.com/watch?v=Xx4zk1HnSO4
115 https://www.youtube.com/watch?v=mCN03o19Nak

29 iyunda tikintiyə etiraz edən Sumqayıt sakinlərini polis zor tətbiq edərək dağıdıb[116].

İyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və polis serjantına Yunis Səfərov tərəfindən silahlı sui-qəsd olub. Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə məlumatında[117] bu hadisə "terror aktı" kimi dəyərləndirilib və Yunis Səfərovun terror aktını törətməkdə əsas məqsədi "Azərbaycanda şəriət qanunları ilə idarə olunan islam dövləti qurmaq, bunun üçün bir neçə tanınmış dövlət məmurunu öldürməklə respublikada ajiotaj, xaos, vahimə yaratmaq, nəticə etibarı ilə hakimiyyətin zorla ələ keçirilməsini təşkil etmək" olduğunu qeyd ediblər.

Rəsmi məlumata görə, iyulun 10-da Gəncədə 150-200 nəfərlik radikal dini qrupun keçirmək istəyiblər və aksiyada yüksək rütbəli polis zabitləri - İlqar Balakişiyev və Səməd Abbasov qətlə yetiriliblər.

"Turan" agentliyinin yazdığına görə, iyulun 10-da sosial şəbəkə vasitəsiylə təşkil edilən aksiya iyulun 3-də şəhərin icra hakimi Elmar Vəliyevin həyatına sui-qəsdlə bağlı olub. Aksiya iştirakçılarının fikrincə, Vəliyevin həyatına sui-qəsd məmurun özbaşınalığı nəticəsində baş verib.[118]

Aksiyadan çəkilən görüntüdən[119] polis əməkdaşlarının sakinə qarşı fiziki şiddət tətbiq etdiyi görsənir. Ümumilikdə Gəncə hadisələri ilə bağlı 70-dən çox şəxsin həbs edildiyi açıqlanıb. Baş Prokurorluğun bir müddət öncə bildirməsinə görə, Gəncə olayları ilə bağlı ümumilikdə 6 qrupun (51 nəfər) işi məhkəməyə göndərilib. Məhkəməyə göndərilənlər əsasən zorakılıqların, talanların, yanğınların törədilməsi, odlu silahın, partlayıcı maddələrin tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşlarda ittiham ediliblər. Mühakimə edilənlərə 5 ildən 9 ilə qədər həbs cəzası verilib.[120] Bundan əlavə əməliyyat axtarış tədbirləri zamanı 5 nəfər öldürülüb. [121]

Baş Prokurorluğun mətbuat xidmətindən "Amerikanın Səsi"nə bildiriblər ki, Gəncədə baş verən hadisələrlə bağlı doğru olmayan məlumat yaydığına görə "gununsesi.info" və "teref.info" saytlarının vəzifəli şəxsləri barəsində Baş Prokurorluqda cinayət işləri başlanıb. Prokurorluq "bastainfo.com", "criminalaz.com", "topxeber.az" və "fia.az" internet saytlarının internet informasiya ehtiyatına müraciətlərinin məhdudlaşdırılması və digər məhdudiyyətlərin tətbiqi üçün müvafiq tədbirlərin görülməsi üçün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət edib. Bu müraciətdən sonra adı sadalana dörd sayta da girmək mümkün olmayıb.[122]

Azərbaycanın ərazi bütövlüyü uğurunda həlak olan hərbi qulluqçulardan bəzilərinin ailə üzvləri bu il 11 min manat nəbləğində birdəfəlik müavinətlərini ala bilmədikləri üçün bir neçə dəfə aksiya

[116] https://www.youtube.com/watch?v=wl4a5JUO_2E
[117] http://www.dtx.gov.az/news242.php
[118] https://www.bbc.com/azeri/azerbaijan-44812094
[119] https://www.youtube.com/watch?v=87Ue_GGBLqA
[120] https://www.azadliq.org/a/ba%C5%9F-prokurorluq-i%C5%9Fg%C9%99nc%C9%99-%C5%9Fikay%C9%99tl%C9%99rini-%C9%99sas%C4%B1z-say%C4%B1b/29999181.html
[121] https://www.azadliq.org/a/29435021.html
[122] https://www.amerikaninsesi.org/a/hebs/4482586.html

keçiriblər. Oktyabrın 16-sı Milli Məclisin qarşısına toplaşan insanları bir müddət sonra dağıtmağa başlayıblar[123].

Oktyabrın 23-də Prezident Administrasiyasının qarşısına yürüş etmək istəyərkən polis onlara müdaxilə edib. [124] Noyabrın 6-da da metronun «Sahil» stansiyasından piyada Prezident Administrasiyasının qarşısına getmək istəyərkən polislər onlara yolda şüar səsləndirməyə, kütləvi hərəkət etməyə və plakat qaldığrmağa icazə verməyib[125].

Dekabrın 11-də[126] isə Prezident Administrasiyasının qarşısında toplaşmış vərəsələrdən T.Qocayev polis işçisinin qanuni tələbinə tabe olmamaq ittihamı ilə 30 sutka inzibati həbs alıb, daha sonra cəzası 15 sutkaya kimi azaldılıb.

## 4.3. Müxtəlif məzmunlu aksiyalara müdaxilələr

**2017**

2 fevral tarixində Müsavat Partiyası qərargahının qarşısında bir qrup şəxs piket keçirib. Aksiyanı kimin təşkil etdiyi elan edilməyib. Aksiyaçılar partiyanın ünvanına tənqidlər, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbərin ünvanına isə tənqid və təhqirlər səsləndiriblər. İştirakçılar “Musavata ar olsun!”, “Yaşasın Heydər Əliyev””, “Yaşasın İlham Əliyev!” şüarları səsləndiriblər. Aksiya iştirakçılarına polis müdaxilə etməyib.[127]

22 iyunda isə "Maarifçiliyə Dəvət" İctimai Birliyinin sədri Elçin Manafov Qüds günü münasibətilə İsrail səfirliyi qarşısında etiraz aksiyası keçirdikdən sonra tərəfindən saxlanılıb.[128]

Dekabrın 17-də ABŞ səfirliyi qarşısında etiraz aksiyaları isə heç bir müdaxilə olmadan başa çatıb.

**2018**

İyunun 8-də polis Ramazan ayının son cümə günü Fələstin xalqı ilə həmrəylik və “Qüds günü” münasibətilə İsrail səfirliyi qarşısında aksiya keçirilməsinin qarşısını alıb.

Piketin təşkilatçılarından biri, Qarabağın Uğrunda İslami Müqavimət Hərəkatının lideri Rövşən Əhmədli “Amerikanın Səsi”nə bildirib ki, aksiya başlamazdan əvvəl evdən çıxarkən saxlanılıb. O, Binəqədi rayon polis idarəsinin 7-ci polis bölməsinə aparılıb, ona icazəsiz aksiya keçirilməsinin yolverilməz olduğunu bildirilib və aksiya başa çatdıqdan sonra buraxılıb. O həm də qeyd edib ki, polis təxminən 15 toplantı iştirakçısını saxlayıb.[129]

---

[123] https://www.youtube.com/watch?v=1hOg8y0rjYc
[124] https://www.youtube.com/watch?v=8NyT4veKOXI
[125] https://www.youtube.com/watch?v=-7ffaW8BVno
[126] https://www.youtube.com/watch?v=owbCNhu0eqc
[127] https://www.amerikaninsesi.org/a/aksiya/3703237.html
[128] https://xeberman.com/news/gundem/16203-maarifciliye-devet-ctimai-birliyinin-sedri-elcin-manafov-polis-terefinden-saxlanilib.html
[129] https://www.amerikaninsesi.org/a/siyaset/4430227.html

**2019**

Martın 24-də Bakının mərkəzində, Fəvvarələr meydanında bir qrup fəal vərəmə yoluxmaqdan qorunma qaydaları ilə tanışlıq aksiyası keçirməyə cəhd edib. Aksiya iştirakçıları «Vərəmə yox deyək!» və «Gələcək vərəmsiz gələcək!» şüarları yazılan plakatlarla şəhər sakinlərinə yaxınlaşıb, onlara bukletlər paylayıblar.

Aksiya iştirakçılarının "Turan" agentliyinə bildirdiyinə[130] görə, aksiya başlamışdan az sonra polis tədbirin davam etməsinə imkan verməyib. Polis onlara bildirib ki, şəhər rəhbərliyi ilə razılaşdırılmayan aksiyaya icazə verilmir.

Aprelin 13-də bir qrup gənc intihar edən, 162 saylı tam orta məktəb şagirdi, 14 yaşlı, 8-ci sinif şagirdi Elina Ədalət qızı Hacıyevanın anımı üçün məktəbin qarşısına toplaşıblar. Video görüntüdə[131] görünür ki, heç bir şüar səsləndirməyən, dinc gənclərə mülki geyimdə və uniformada olan polis işçiləri müdaxilə etmiş, gənclərə anım keçirməyə imkan verməmiş, məktəbin həyətindən itələyərək uzaqlaşdırıb və avtobuslara mindiriblər. Anım iştirakçıları polislə birlikdə olan mülki geyimlinin onları çəkdiyini qeyd edib.

Aprelin 22-sində bir qrup heyvansevər itlərin güllənməsinə etiraz etmək üçün Bakı Şəhər İcra Hakimiyyətinin qarşısına toplaşıblar.[132] "Stop genocide" ("soyqırımı dayandırın") plakatı qaldıran iki şəxs (Elxan Mirzəyev və Nicat İsmayılov) saxlanılıb.

## 4.4. Bayram və xüsusi günlərlə bağlı aksiyalara müdaxilələr

2016-cı ilin 3 oktyabr tarixində Aşura məclisi bağlı Lənkəran şəhərində yürüşə icazə verilməyib. Bunun səbəbini Qafqaz Müsəlmanlar İdarəsinin(QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə açıqlayıb. O, Aşura mərasimləri ilə əlaqədar küçə yürüşlərinin təşkilini məqsədəuyğun hesab etmədiyini bildirib.[133]

Hər il olduğu kimi 2017-ci ilin mayın 28-də müxalifət partiyaları və digər hərəkatlar Bakının Novxanı kəndində Məhəmməd Əmin Rəsulzadənin abidəsini ziyarət edib bayram aksiyası keçirirlər.

Bayram aksiyası zamanı Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbər, AXCP sədri Əli Kərimli və ReAl İdarə Heyətinin üzvü Xalid Bağırov çıxış edərkən elektrik enerjisində kəsintilər meydana gəlib.[134]

2018-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətin yüzilliyi münasibətilə «İstiqlal abidəsi»ni ziyarət etmək istəyən bir sıra ictimai təşkilatlar və partiyalar problemlə üzləşiblər. Polis kütləvi yürüşə icazə verilməməsini küçə hərəkətinə əngəl yaratmaqla izah edir.

---

130 https://www.turan.az/ext/news/2019/3/free/Social/az/79672.htm
131 https://www.youtube.com/watch?v=8SvJn7BGNwI
132 https://www.youtube.com/watch?v=s_8LUQYHYrc
133 https://report.az/din/allahsukur-pasazade-asura-gunu-yuruslerin-kecirilmesi-qadagandir/
134 https://www.azadliq.org/a/duz-99-il-bundan-evvel-memmed-eminin-rehberliyi-ile-milli-shura-azerbaycanin-dovlet-musteqilliyini-elan-edib/28513129.html

“Azadlıq Radiosunu”n əməkdaşları xəbər verib ki, abidə polislə əhatələnib. Polis insanların toplu şəkildə ziyarətinə imkan verməyib, onlar əraziyə 3-5 nəfərlik qruplarla buraxılıblar.

“Azadlıq Radiosu”nun məlumatına görə, güc strukturlarının əməkdaşları jurnalistlərin çəkiliş aparmasına da mane olur. Bundan sonra insanların kütləvi şəkildə Bakı bulvarında gəzintisinə və Cümhuriyyət dövrünün siyasi xadimlərinin plakatlarını qaldırmağa icazə verilməyib. [135] Təşkilatçılar polislə danışıqlar aparmağa çalışsalar da, səmərəsiz olub, aksiya iştirakçıları dağılışıblar.[136]

Mayın 29-da 28 may yürüşünün təşkilatçıları saxlanılıblar. Polisin qanuni əmrinə tabe olmamaq ittihamı ilə REAL Partiyası üzvləri olan A.Qasımlıya 30, Elmin Həmzəyə 25, Nəriman İsmayılova 30, Ərəstun Baxışəliyevə də 30 sutka həbs cəzası verilib.[137]

A.Qasımlı həbsini Respublika Günü şəhərin mərkəzində keçirilən yürüşlə izah edib. Mayın 30-u NİDA Vətəndaş Hərəkatı rəhbərlərindən Əbülfəz Qurbanlı polisə aparılıb, daha sonra sərbəst buraxılıb. Polisdə idarənin rəis müavininin ona “mayın 28-də keçirilmiş cumhuriyyət yürüşündə iştirak etdiyimi, təşkilatçı olduğumu, şüar səsləndirdiyimi” dediyini bildirib[138].

2018-ci ilin mayın 28-də D18 Hərəkatı da paytaxt Bakıda Cümhuriyyətin yüzilliyi münasibətilə sakinlərə şokolad və qızılgül paylamaq istəyib. Şokoladların üzərində Cümhuriyyət qurucularından biri Məmməd Əmin Rəsulzadənin şəkli əks olunub və hərəkat üzvləri adından qısa bir təbrik yer alıb: «D18 Hərəkatı Sizi Cümhuriyyət günü münasibətilə təbrik edir».

“Azadlıq Radiosu”nun verdiyi məlumata əsasən polis hədiyyələri Bakı sakinlərinə paylayan hərəkat üzvlərini saxlayaraq xəbərdarlıq edib, onlara 5 nəfərdən çox adamın bir yerdə toplaşmasına icazə verilmədiyini söyləyiblər. Eləcə də şokoladların üzərində şüar yazıldığını, kütləvi şəkildə gül paylamağın imkansız olduğunu deyiblər.[139]

**2019**

20 yanvar Ümumxalq matəm günündə Milli Şura üzvləri Şəhidlər Xiyabanını ziyarət etmək istəyərkən polisin maneəsi ilə üzləşiblər, bir saatdan çox ziyarətə buraxılmayıblar. 20 nəfərin saxlanıldığı bildirilib[140]. Bu əsnada jurnalist olduğunu qeyd edən bir şəxs polis müdaxiləsi ilə üzləşmiş, telefonu əlindən alınıb[141]. “Amerikanın səsi” mətbuat xidmətinin verdiyi məlumatda deyilir: “... jurnalistlərin də sərbəst işləməsinə maneçilik yaradılıb. Jurnalistlər xiyabanın bir hissəsindən digər hissəsinə buraxılmayıb.”[142] Daha sonra Saxlanılan AXCP üzvlərindən 2 nəfər (Ramin Əhmədov və Amil Məmmədzadə) 200 manat məbləğində cərimə olunub[143] və 9 nəfər inzibati qaydada həbs edilib: Həsənəli Baxşəliyev 10 sutka, Tofiq Məmmədov 20 sutka, 2 nəfər (Ələkbərzadə İsrafil, İlqar Quliyev) 21 sutka, 3 nəfər (Süleyman Məhərrəmov, Faiq Nağıyev, Rəşid Turabov) 23 sutka, Ramin Əhmədov 22 sutka, Ayaz Məhərrəmli 25 sutka.

---

[135] https://www.youtube.com/watch?v=15ftEWdsSPQ
[136] https://www.azadliq.org/a/polis-28-may-cumhuriyyet/29254638.html
[137] https://www.azadliq.org/a/29276216.html
[138] https://www.azadliq.org/a/nida-polis/29259705.html
[139] https://www.azadliq.org/a/polis-28-may-cumhuriyyet/29254638.html
[140] https://www.youtube.com/watch?v=tfujas3ePdo
[141] https://www.youtube.com/watch?v=CQa-a6YdrN0
[142] https://www.amerikaninsesi.org/a/siyasi/4217200.html
[143] http://www.turan.az/ext/news/2019/1/free/Social/az/78205.htm

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağın azərbaycanlıların ikinci böyük yaşayış məntəqəsi olan Xocalıda baş vermiş faciənin qurbanlarını yad etmək üçün “Xocalı abidəsi”nin önünə gül qoymaq istəyən Müsavat Partiyası üzvlərinin qarşısı kəsilib.[144]

Polis vətəndaşlara güc tətbiq edərək dağıtmağa çalışıb. Bu zaman Müsavat Partiyasının məclis üzvü Mehman Kamran xəsarət alıb. AXCP sədri Əli Kərimlinin də AXCP üzvləri ilə birlikdə Xocalı abidəsini ziyarət etməsinə imkan verilməyib. Bu zaman mülki geyimli bir şəxs Əli Kərimliyə hücum etməyə çalışmış, onun ünvanına tənqidlər söyləyib. Eyni zamanda insanların başının üstündə dron uçub.[145]

Qeyd edək ki, eyni gün İlham Əliyev, hökumət və dövlət rəsmiləri, deputatlar da yürüşə qatıldığı, Bakı Dəniz Vağzalının qarşısından başlayaraq Xətai rayonu ərazisində inşa edilən «Ana harayı» abidəsinə doğru yürüş keçirilib[146].

Azərbaycanda feminist qadınlardan ibarət təşəbbüs qrupu 8 Mart Beynəlxalq İşçi Qadınlar gününü qeyd etmək məqsədilə razılaşdırılmamış "8 MARŞ" yürüşü keçirtməyə cəhd edib[147].

“Azad qadın” heykəlindən başlayaraq Xurşudbanu Natavanın heykəlinə qədər davam etməli olan yürüşün başlanğıc nöqtəsində polislər və mülki geyimli şəxslər müdaxilə ediblər, iştirakçıların plakatları əllərindən alınıb, polislər və mülki geyimli aksiya iştirakçıları əhatəyə alaraq metroya doğru sıxışdırıblar, bəzi iştirakçılar saxlanılıb[148]. Bu zaman bir neçə provakator süpürgəçi qadın aksiya iştirakçılarına və jurnalistlərə hücum[149] edib, polis hücum edənlərə müdaxilə etməyib.

## 4.5. Mətbuat və jurnalistlərin fəaliyyətinə müdaxilələr

### 2017

Yanvarın 6-sı müxtəlif səbəblərdən (həyat yoldaşının qanunsuz həbsindən, dədə-baba mülkünün əllərindən alınmasından, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyindən (MTN) və ya icra hakimiyyətindən fəaliyyətindən və ən əsası rəsmilərin onların problemlərinə biganə yanaşmaqlarından) narazı olan Bakı və ətrafı kəndlərdən olan bir qrup vətəndaş Prezident Administrasiyasının qarşısında etiraz aksiyası keçirməyə cəhd göstəriblər. Onların toplaşmasına imkan verilməməklə yanaşı, saxlanılan aksiya iştirakçılarından Sevda Süleymanova[150] “Azadlıq Radiosu”na aksiyanı işıqlandırmaqdan ötrü əraziyə gələn jurnalistlərin də saxlandığı bildirib.

Fevralın 2-də Sabunçu rayonu, Pirşağı qəsəbəsindəki "Qızılqum" sanatoriyasında məskunlaşan məcburi köçkünlər işıq sayğaclarının quraşdırılmasına etiraz ediblər. Vətəndaların suallarına cavab

---

144 https://www.youtube.com/watch?v=zGrjda94dOw
145 https://www.youtube.com/watch?v=H28Zad5cip4
146 https://report.az/siyasi-xeberler/daxili-siyaset/bakida-xocali-soyqiriminin-27-ci-ildonumu-munasibetile-yurus-kecirilir/
147 https://www.youtube.com/watch?v=XfbNh08PvA0&t=1216s
148 https://www.azadliq.org/a/bak%C4%B1da-qad%C4%B1na-%C5%9Fidd%C9%99t%C9%99-yox-aksiyas%C4%B1-ke%C3%A7irilib/29810579.html
149 https://www.youtube.com/watch?v=r_X-lQkr0BY
150 https://www.azadliq.org/a/zencirli-aksiya-baki-prezident-aparati-qarshisi/28217288.html

vermək üçün gələn icra hakimiyyəti başçısı Bayram Səfərov "Meydan Tv" jurnalistinin çəkilişinə müdaxilə edib, jurnalistə qarşı kobud davranaraq kameranın yığışdırılmasını tələb edib.[151]

Aprelin 12-də "Sovetski adlanan ərazidə məcsid söküntüsünə etiraz zamanı hadisə yerinə gəlmiş Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev də ondan müsahibə almaq istəyən jurnalist Fərqanə Novruzovaya qarşı kobud davranıb[152], video görüntüdə polislərin əhatəsində olan icra hakimiyyəti başçısının jurnalistin kamerasına sillə vurduğu görünür.

21 iyulda Nəsimi rayonunda yaşayan sakinlər ağacların kəsilməsinə etiraz ediblər. 1 nəfər saxlanılıb, sakinlər aksiyanı işıqlandırmaq üçün Azərbaycan Televiziyasına zəng etdiklərini, amma kanalın gəlmədiyini bildiriblər. [153]

Avqustun 9-da Nardaran hadisələrində həbs olunan Abbas Hüseynovun işgəncəyə məruz qalması iddiasından sonra Penitensiar xidmətin qarşısına gedən insanları aksiyasını işıqlandıran "Meydan TV" jurnalistinə də müdaxilə edilib, ərazini tərk etməsi bildirilib.[154]

Oktyabrın 3-ü saat 7 radələrində jurnalist Aytac Əhmədova Sabunçu rayonu, Zabrat qəsəbəsində yolu bağlayaraq etiraz aksiyası keçirən sakinlərin toplantısını işıqlandırarkən saxlanılıb. 3 saata yaxın polis bölməsində saxlanılan jurnalist "Meydan Tv"yə müsahibəsində təzyiqlə üzləşdiyini, polisin müdaxilə etdiyini, çəkilişə icazə verilmədiyini, zorla maşına mindirib polis bölməsinə aparıldığını və orada Qabil adlı bir polisin ona sillə vurduğunu, polisin ona İXM-yə əsasən saxlanacağını dediyini bildirib.[155]

**2018**

12 iyunda sosial tələblərlə Prezident Administrasiyasının qarşısına toplaşan məcburi köçkünləri mülki geyimli şəxslər davamlı əhatədə saxladığı və jurnalist çəkilişinə də icazə verilmədiyi bildirilib.[156]

29 iyunda Azərbaycan Tibb Universitetinin tələbələri rezidentura imtahanı üçün ayrılmış yer sayının azaldılması ilə əlaqəli Səhiyyə Nazirliyinin qarşısında toplaşıblar. Toplantını işıqlandıran "Meydan TV" jurnalistinin çəkilişinə maneələr törədilib və toplaşan tələbələrdən səlahiyyətli şəxsin gəlməsi üçün kameranın söndürülməsi tələb edilib[157].

18 iyulda polis əməkdaşı Corat sakinlərinin şadlıq sarayının tikintisinə etirazını işıqlandıran jurnalistlərdən birinin (Kanal 13-ün müxbiri Nurlan Qəhrəmanlının) kamerasını əlindən alıb, digər jurnalistin kamerasını isə əli ilə itələyib.[158]

Azərbaycanın ərazi bütövlüyü uğurunda həlak olan hərbi qulluqçulardan bəzilərinin ailə üzvləri bu il 11 min manat nəbləğində birdəfəlik müavinətlərini ala bilmədikləri üçün bir neçə dəfə aksiya keçiriblər.

---

[151] https://www.youtube.com/watch?v=gumli4kTgQU
[152] https://www.youtube.com/watch?v=GvkxM5EcTNQ
[153] https://www.youtube.com/watch?v=leEDpnzw1jU
[154] https://www.youtube.com/watch?v=F_FcLnsgT2Y
[155] https://www.youtube.com/watch?v=pJSV3XrrHPw
[156] https://www.amerikaninsesi.org/a/sosial/4435071.html
[157] https://www.youtube.com/watch?v=zvSXYMchYRs
[158] https://www.youtube.com/watch?v=8hFsdmXBS6g

Oktyabrın 16-sı Milli Məclisin qarşısına toplaşan insanların aksiyasını işıqlandıran jurnalistlərə bir neçə dəfə müdaxilə edilib, onların aparatlarını əllərindən almağa və sındırmağa cəhd ediblər[159]. Oktyabrın 23-də Prezident Administrasiyasının qarşısına yürüş etmək istəyən insanların aksiyasını işıqlandıran jurnalistlərin də çəkilişinə yenə polis əməkdaşları tərəfindən maneələr yaradılıb[160].

Noyabrın 13-də vətəndaşlarla görüşə qəbul olunarkən vətəndaşlarən tələbinə baxmayaraq, jurnalistlərin çəkilişinə icazə verilməyib. Vətəndaşlar bir sıra media kanallarının tərəfli olduğunu, dövlət kanallarını aksiyaları işıqlandırmaq üçün çağırsalar da, gəlmədiklərini bildiriblər. [161] Noyabrın 27-də şəhid ailələri üzvlərinin Prezident Administrasiyasının qarşısındakı aksiyasından birbaşa reportaj aparan "Azel.tv" saytının baş redaktoru Əfqan Sadıqlı 2 saat sonra saxlanılıb. Onun həyat yoldaşı Sevinc Sadıqova "Azel.tv"-yə bildirib: "Onun gözlərinin qarşısında mülki şəxslər jurnalisti saxlayıblar və heç bir açıqlama vermədən maşına oturdaraq naməlum istiqamətə aparıblar".

Ə. Sadıqov İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (polis əməkdaşının və hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmamaq) maddəsi ilə 30 sutka müddətində inzibati qaydada həbs edilib.[162]

Noyabrın 17-də Milli Dirçəliş günü ilə bağlı Şəhidlər Xiyabanını ziyarət etmək istəyən Milli Şura və bu quruma daxil olan AXCP təmsilçiləri polis müdaxilə edərkən "Kanal-13" internet televiziyasının əməkdaşı Nurlan Libre (Qəhrəmanlı) saxlanılıb. N.Librenin "Azadlıq Radiosu"na verdiyi müsahibəyə əsasən həmin gün çəkiliş apararkən polis saxlayıb və polis zorakılığı ilə də üzləşib.[163]

**2019**

Yanvarın 3-ü Bakıda, bir qrup siyasi və ictimai fəal metronun "Neftçilər" stansiyasının yaxınlığında "Mehman Hüseynova azadlıq!", "Siyasi məhbuslara azadlıq!" şüarları ilə razılaşdırılmamış piket keçirməyə cəhd edərkən polis müdaxilə edib və iştirakçıları saxlayıb. Saxlanılanlar arasında jurnalistlər də olub.

Jurnalist Sevinc Vaqifqızı "facebook" hesabında polis əməkdaşının onun avadanlığı əlindən aldığını və özünü də "dartışdıra-dartışdıra bölməyə aparıldığını" paylaşıb.[164]

Toplantını işıqlandıran jurnalistlərdən "Kanal 13" internet televiziyasının müxbiri Nurlan Qəhrəmanlı və "Azel.tv" saytının jurnalisti Əfqan Sadıqov 21-22 sutka müddətində inzibati qaydada həbs edilib, "Azad söz" saytının jurnalisti Fərid Abdinov isə 400 azn məbləğində cərimə edilib.[165]

---

159 https://www.youtube.com/watch?v=1hOg8y0rjYc
160 https://www.youtube.com/watch?v=8NyT4veKOXI
161 https://www.youtube.com/watch?v=pUJfke7S3z4
162 https://azel.tv/manset/jurnalist-%C9%99fqan-sadiqov-30-gunluk-h%C9%99bs-edilib-yenil%C9%99nib/
163 https://www.azadliq.org/a/29608282.html
164 https://m.facebook.com/story.php?story_fbid=10215800020347710&id=1660506032
165 https://mikroskopmedia.com/2019/01/04/mehman-huseynova-d%C9%99st%C9%99k-aksiyasinda-saxlanilanlara-sutkaliq-h%C9%99bsl%C9%99r-verilib/

Mehman Hesynova və digər siyasi məhbuslara azadlıq tələbi ilə keçirilən razılaşdırılmış 19 yanvar mitinqindən sonra jurnalist Coşqun Eldaroğlu da "Meydan TV"-yə polisə çağırıldığını bildirib. O, polis idarəsində əməkdaşın "telefon nömrələri ilə çağırırıq" dediyini əlavə edib.[166]

Jurnalist Ramin Deko da "facebook" səhifəsində "polis rəisinin ona zəng edib, 19 yanvar mitinqində iştirak edib-etmədiyini" soruşduğunu bildirib.[167]

"Amerikanın səsi" mətbuat xidmətinin verdiyi məlumata əsasən, 20 Yanvar Ümumxalq matəm günündə Milli Şura üzvləri Şəhidlər Xiyabanını ziyarət etmək istəyərkən polisin maneəsi ilə üzləşərkən də. "... jurnalistlərin də sərbəst işləməsinə maneçilik yaradılıb .[168]

Martın 19-da Fəvvarələr meydanında keçirilməsi planlaşdırılan aksiyanı işıqlandıran jurnalistlərə mülki geyimdə olan şəxslər tərəfindən müdaxilə edilib, çəkilişə mane olunub və jurnalistlərin telefonları əllərindən alıblar. Saxlanılanlar arasında 2-si jurnalist (Obyektiv TV-nin müxbiri Fatimə Mövlamlı və Kanal 13-ün müxbiri Nurlan Qəhrəmanlı (Libre)) olub.[169]

Azərbaycanda feminist qadınlardan ibarət təşəbbüs qrupu 8 Mart Beynəlxalq İşçi Qadınlar gününü qeyd etmək məqsədilə razılaşdırılmamış "8 MARŞ" yürüşü zamanı bir neçə provakator süpürgəçi qadın aksiya iştirakçılarına və jurnalistlərə hücum[170] edib, polis hücum edənlərə müdaxilə etməyib.

Aprelin 13-də intihar edən 162 saylı tam orta məktəb şagirdi Elina Ədalət qızı Hacıyevanın anımı üçün məktəbin qarşısına toplaşanların anım mərasimini işıqlandıran jurnalistə mülki geyimli şəxslər müdaxilə etməyə çalışıblar. Mərasim iştirakçılarını dağıtmağa çalışan polis bu zaman mülki geyimli şəxslərə heç bir müdaxilə və ya xəbərdarlıq etməyib.[171]

## 4.6. Qapalı məkanlarda keçirilən toplantılara müdaxilələr

### 2017

Respublikaçı Alternativ Partiyasının (ReAL) Təşəbbüs Qrupu 1-ci təsis qurultayının keçirilməsi üçün bir sıra qurumlara (Bakı Şəhər İcra Hakimiyyəti; Azərbaycan Dövlət Opera və Balet Teatrı; Beynəlxalq Mətbuat Mərkəzi; "Pullman Baku" Oteli; "Park Inn" Otel; "Hyatt Regency" Oteli; "The Landmark Baku" Oteli) müraciət edib. Qurultayın noyabrın 4,5,11,12,18,19,25,26 və ya dekabr ayının ilk həftəsonu keçirilməsinin mümkün olduğu göstərilib. Sadalanan qurumlardan BŞİH ReAl partiyasının müraciətinə uyğun yer olmadığını bildirib.[172]

Bundan əvvəl ReAL oktyabrın 29-da qurultay keçirilməsi üçün Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsinə müraciət edib. Təşəbbüs Qrupu "Təbriz" və "Bakı" kinoteatrlarında və ya Bəhlulzadə adına Mədəniyyət Sarayında qurultay keçirilməsini istəyib. Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsi isə müraciəti rədd edərək təsis qurultayından ötrü istənilən məkanlardan

---

[166] https://m.facebook.com/story.php?story_fbid=1998524390194610&id=490548244325573
[167] https://www.turan.az/ext/news/2019/1/free/Social/az/78268.htm

[168] https://www.amerikaninsesi.org/a/siyasi/4217200.html
[169] https://www.youtube.com/watch?v=BV3JR_WyUbI
[170] https://www.youtube.com/watch?v=r_X-lQkr0BY
[171] https://www.youtube.com/watch?v=8SvJn7BGNwI
[172] https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/real-a-qurultay-ucun-yer-verilmedi/

"Təbriz" və "Bakı" kinoteatrları baş idarənin balansında olmadığını və Bəhlulzadə adına Mədəniyyət Sarayında isə həmin tarixdə film nümayişi olacağını bildirib.[173]

**2018**

Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayının rəhbərliyi Azərbaycan Xalq Cümhuriyyəti (AXC) parlamentinin yaradılmasının 100 illiyi ilə bağlı dekabrın 7-də tədbir keçirmək üçün Müsavat Partiyasına yer ayırmaqdan imtina edib.

Partiya sədri Arif Hacılı "Turan" informasiya agentliyinə verdiyi məlumata əsasən, Mədəniyyət Sarayının rəhbərliyi Müsavat Partiyasına zal ayırmaqdan imtina etməsinin səbəblərini şərh etməyib.[174]

Martın 15-də Bakıda Sumqayıtdan olan 7 iş adamı aclıq aksiyasına başlayıb. Lakin martın 17-də Binəqədi Rayon Polis İdarəsinin bir qrup əməkdaşı aclıq aksiyası keçirilən binaya daxil olaraq aksiyanı dağıdıb. Aksiya iştirakçılarından Rəşad Abbasov "Meydan TV"yə onların pis rəftara məruz qaldığını, polisin dinc aksiya iştirakçılarına zor tətbiq edərək, onları mənzildən çıxardığını bildirib.[175]

## 4.7. İcazə verilməyən toplantılar

**2017**

Müsavat partiyası oktyabrın 21-də "Qarabağa azadlıq!", "Siyasi məhbuslara azadlıq!", "Xalqdan oğurlanan milyardlar geri qaytarılsın!", "Sərbəst toplaşmaq azadlığı təmin edilsin!" şüarları ilə yürüş keçirmək üçün BŞİH-nə müraciət etsə də, Müsavatın Divan üzvü Razim Əmiraslanlının "Basta"ya verdiyi məlumata görə, müraciət "yürüş üçün göstərilən marşrutların nəqliyyatın sıx hərəkət etdiyi ərazilər olduğunu" səbəb göstərərək yürüş keçirmək təklifi rədd edilib və "Məhsul" stadionunda mitinq keçirilməsini təklif edib.[176]

Vəkillik institutunun tərkib hissəsi olan nümayəndəlik institutunun məhdudlaşdırılmasına etiraz etmək məqsədilə noyabrın 18-də mitinq keçirmək üçün Praktik Hüquqşünaslar Qrupunun (PHQ) İşçi Qrupu Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib[177].

BŞİH isə qanunvericiliyə təklif edilmiş dəyişikliklərin artıq "Prezident İlham Əliyev tərəfindən imzalandığını" və mitinqdə iştirak edəcək şəxslərin "qeyri-müəyyən sayda göstərilməsini" səbəb göstərərək mitinqi məqsədəuyğun hesab etməyib.[178]

Şamaxıdakı Sirə qışlağına toplaşanlardan biri - Toğrul Salahov "AzadlıqRadiosu"na bildirib ki, qışlaq sahəsinin əllərindən alınmasına etiraz etmək üçün yanvarın 14-də aksiya keçirmək istəyib

[173] https://d9mc3ts4czbpr.cloudfront.net/ru/article/real-yene-qurultay-ucun-muraciet-etdi/
[174] http://www.contact.az/ext/news/2018/12/free/politics%20news/az/77201.htm
[175] https://www.youtube.com/watch?v=yUhqehY1iEg
[176] http://basta2.com/az/2017/10/19/musavatin-aksiyasina-icaz%C9%99-verillm%C9%99di/
[177] http://turan.az/ext/news/2017/11/free/Social/az/66560.htm
[178] https://www.dropbox.com/s/prxw2yga8kdndg1/H%C3%BCquq%C5%9F%C3%BCnaslar.jpg?dl=0

və icra hakimiyyətinə müraciət ediblər. Lakin qurum sahibkarlara və çobanlara məktub göndərərək, aksiyaya icazə verməyib.[179]

**2018**

QAT noyabrın 24-ü və dekabrın 15-də "Məhsul" stadionunda yenə "Qarabağa Azadlıq" şüarı ilə mitinq keçirmək üçün BŞİH-nə müraciət etsə də, BŞİH mitinqi məqsədəuyğun hesab etmədiyindən imtina edib. Bu barədə BŞİH Başçısı Aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanovun göndərdiyi cavab məktubunda qeyd edilib: "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə əlaqədar möhtərəm prezidentimiz cənab İlham Əliyev ölkə daxilində və beynəlxalq miqyasda ciddi iş aparır. Eyni zamanda qeyd edirik ki, Qarabağ məsələsi ilə bağlı danışıqlar şəffaf aparılır, keçirilən bütün tədbirlərdə bu məsələlər kütləvi informasiya vasitələri ilə işıqlandırılır. Qeyd olunanaları nəzərə alaraq, 15 dekabr 2018-ci ildə planlaşdırdığınız mitinqin keçirilməsini məqsədəuyğun hesab etmirik".[180]

BŞİH DQMŞ-nın mayın 28-də Cümhuriyyətin 100 illiyi ilə bağlı mitinq keçirmək müraciətinə rədd cavabı verib. İcra hakimiyyəti aksiyanı mayın 26-da keçirməyi məqsədəuyğun hesab edib, lakin təşkilatçılar bayramın başqa gündə keçirilmsəi təklifi ilə razılaşmayıblar.[181]

AXCP-nin 4 noyabr tarixində mitinq keçirmək üçün etdiyi müraciət rədd edilib. Mitinq üçün 5 məkan təklif edilsə də, BŞİH "Azadlıq" meydanının yalnız ümüdövlət və ümumxalq tədbirləri üçün münasib olduğunu, Milli Məclis yanında keçiriləcək mitinqin də "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9.3-cü maddəsinə əsasən qadağan edilə biləcəyini, digər üç yerdə ("Təbriz" kinoteatrının qarşısı, Hüseyn Cavid və Nərimanov parklarında) keçiriləcək toplantının da nəqliyyat axınına əngəl olacağını bildirərək rədd cavabı verib.[182] AXCP dekabrın 15-də yürüş keçirmək üçün etdiyi müraciət də eyni əsaslarla rədd edilib.[183]

**2019**

Müsavat Partiyası həbsdə olan jurnalist-bloger Mehman dəstək məqsədilə yanvarın 12-də "Məhsul" stadionunda mitinq keçirmək üçün yanvarın 7-də BŞİH-nə xəbərdarlıq məktubu göndərib. BŞİH isə ayın 9-da "müraciətin "Sərbəst toplaşmaq azadlığı haqqında" AR Qanunun 5-ci maddəsinin I hissəsinin (xəbərdarlıq... toplantının keçiriləcəyi gündən, bir qayda olaraq, azı 5 iş günü əvvəl təqdim edilməlidir.)[184] tələblərinə uyğun olmadığını" iddia edərək mitinqin keçirilməsini məqsədə uyğun hesab etməyib.

Müsavat Partiyası "Siyasi məhbuslara azadlıq!", "Sərbəst toplaşma azadlığı təmin edilsin!", "Azad seçki və siyasi rəqabət üçün şərait yaradılsın!" kimi şüarlarla martın 10-da yürüş-mitinq keçirmək üçün BŞİH-nə müraciət edib və iki mümkün marşrut ("Azadlıq prospekti" stansiyasının çıxışından

[179] https://www.azadliq.org/a/shamaxili-cobanlarin-elinden-qishlaq-yerlerini-almaq-isteyirler/28313961.html
[180] https://www.dropbox.com/s/ve48fjnjy8120oy/15.12.2018.jpg?dl=0
[181] https://m.facebook.com/story.php?story_fbid=1786278468132098&id=100002498866752
[182] https://www.dropbox.com/s/pp73dyh7k2gt387/04.11.2018.pdf?dl=0
[183] https://www.dropbox.com/s/ve48fjnjy8120oy/15.12.2018.jpg?dl=0
[184] https://www.dropbox.com/s/218c4buip106hqz/M%C3%BCsavat%20partiyas%C4%B1%2012%20yanvar%20mitinqin%C9%99%20cavab.jpeg?dl=0

S.S.Axundov küçəsi ilə keçməklə yürüş və metronun "Dərnəgül" stansiyasının yuxarısındakı meydanda mitinq, "20 Yanvar" stansiyasının çıxışından H.Zərdabi prospektindən keçməklə yürüş və keçmiş "Məhsul" stadionunda mitinq) təklif edib. BŞİH yürüşün nəqliyyatın hərəkətinə və metrostansiyadan istifadə edən kütlənin narahatlığına səbəb olacağını əsas gətirərək yürüşə icazə verməyib.

Müsavat Partiyası aprelin 7-də eyni şüarlarla yürüş keçirmək üçün BŞİH-yə müraciət edib. Partiya yürüşlə bağlı 3 marşrut göstərsə də, (metronun "Azadlıq" stansiyasından "Dərnəgül" stansiyasınadək yürüş və mitinq, metronun "20 Yanvar" stansiyasından "Məhsul" stadionunadək yürüş və mitinq, metronun "Gənclik" stansiyasının çıxışı - T.Bəhrəmov adına stadionun qarşısındakı meydanda mitinq) BŞİH heç biri ilə razılaşmayıb. BŞİH eyni gündə həm Dövlət İmtahan Mərkəzi tərəfindən buraxılış imtahanı təyin edilməsinə görə, həm də hər üç ərazinin metro çıxışı olduğu və əhalinin sözügedən ərazilərdə sıx hərəkət olduğuna görə toplantı keçirilməsinin təhlükəsizliyinin təminatını vermədiyini əsas gətirərək toplantını məqsədəuyğun hesab etmədiyini bildirib.[185]

Milli Şura yanvarın 26-da "Məhsul" stadionunda mitinq keçirmək üçün etdiyi müraciətə BŞİH mənfi cavab vermişdir. Əsas olaraq isə 19 yanvar mitinqindən sonra iştirak edən şəxslərin ictimai qaydanı pozmasını və yanvarın 20-də Milli Şuranın Şəhidlər Xiyabanını ziyarət edərkən yol verdikləri ictimai asayiş pozuntularını gətirmiş və təşkilatçıların vəzifələrini yerinə yetirmədiyi bildirilib[186].

BŞİH Milli Şura tərəfindən fevralın 23-nə[187], martın 2-nə[188], aprelin 6-na[189] və 20-nə[190] mitinq keçirmək üçün edilmiş müraciətlərə də eyni əsasla icazə verməyib.

Qarabağ Komitəsi 16 fevralda, 16 martda, 4 mayda[191] mitinq keçirmək üçün BŞİH-yə etdiyi müraciətlər rədd edilib. BŞİH Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün prezident İlham Əliyevin zəruri addımlar atdığını və atılan addımların mütəmadi olaraq kütləvi informasiya vasitələri ilə işıqlandırıldığını əsas gətirərək mitinqləri məqsədəuyğun hesab etməyib[192].

## 5. Beynəlxalq Təşkilatların Reaksiyaları

**BMT.** BMT-nin sərbəst toplaşmaq və birləşmək azadlığı üzrə məruzəçisinin 4 avqust 2015-ci il tarixli hesabatında[193] Azərbaycanda toplantı azadlığına müdaxilələr qeyd edilir: "Hakimiyyət nümayəndələri, xüsusilə də böyük şirkətlərin sponsorluğu ilə keçirilən tədbirlərə qarşı keçirilən toplantılar üçün lazımi icazə, lisenziya və ya digər imkanların verməkdən boyun qaçırırlar. Bunun

[185] https://www.dropbox.com/s/xr6awi31vj441rz/07.04.2019.jpg?dl=0
[186] https://www.dropbox.com/s/6pb9jac4ijj0rce/26.01.2019.jpg?dl=0
[187] https://www.realtv.az/news/az/12344/milli-shuranin-23-fevral-mitinqi-ile-bagli-muracietine-cavab-verildi
[188] https://www.dropbox.com/s/8e6fe06l1rqd2xo/02.03.2019.jpg?dl=0
[189] https://www.dropbox.com/s/0fqrbjsbm141mi7/06.04.2019.jpg?dl=0
[190] https://www.dropbox.com/s/wycz49gqbqzg5k9/20%20aprel%202019.jpg?dl=0
[191] http://operativ.tv/bu-il-13-mitinq-icaz-verilmyib.html
[192] https://www.dropbox.com/s/srtgt47rh0i6afj/16.02.2019.jpg?dl=0

[193] https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N15/242/64/PDF/N1524264.pdf?OpenElement

gözəçarpan nümunəsi Azərbaycanda korporasiyalar tərəfindən maliyyələşdirilən Avropa Oyunlarına qarşı etiraz edən insan hüquqları fəallarına təzyiq edilməsidir."

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Ofisinin 16 mart 2018-ci il tarixli hesabatında[194] da Azərbaycanda sərbəst toplaşmaq azadlığının vəziyyəti narahatçılığını ifadə etmişdir: "İnsan Hüquqları Komitəsi mütəmadi olaraq mütənasib olmayan güc tətbiqi və/ və ya saxlanılma və dinc yürüşlərdə iştirak edənlərin inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi iddiaları da daxil olmaqla, praktikada dinc toplaşmaq azadlığına qoyulmuş məhdudiyyətlərdən narahat olduğunu bildirmişdir."

**Avropa Şurası Parlament Assambleyası**.AŞPA-ın 2017-ci il tarixli "Azərbaycanda demokratik institutların fəaliyyəti" adlı sənədində[195] "parlamentdə təmsil olunmayan partiyaların fəaliyyəri üçün yaradılmış məhdud şərait və sərbəst toplaşmaq azadlığına qoyulan məhdudiyyətlərlə bağlı iddialardan narahat olduğunu" bildirib: "İctimai toplantıları tənzimləyən qanunvericilik və praktika aydınlıq və əvvəlcədən görülə bilənlik prinsiplərinə cavab vermir, bu da, məruzə edilənə əsasən, toplantı iştirakçılarının özbaşına həbsi və saxlanılması da daxil olmaqla toplantıların qadağan edilməsinə səbəb olur. Bu faktor insanların toplaşmaq azadlığına mənfi təsir edir".

AŞPA-nnın 18 sentyabr 2017-ci il tarixli Azərbaycanla bağlı hesabatında[196] da narahatlıqlarını ifadə etmişdir: "Toplaşmaq azadlığını tənzimləyən qanun 2008-ci ildə Venesiya Komissiyasının tövsiyələrindən sonra dəyişdirilsə də, "xəbərdarlıq icraatının" "icazə alma icraatı" kimi şərh olunduğu görünür. Azərbaycan razılaşdırılmamış toplantılarda iştirak edənlər və onları təşkil edənlərə qarşı sərt cəzalar tətbiq edir. Məsələn, inzibati həbs və ya yüksək məbləğli cərimə. Bu vəziyyəti AİHM də 2010 və 2014-cü illər arasında keçirilmiş dinc toplantılar barədə 10 qərarında da tənqid edib (bax Qafqaz Məmmədov Azərbaycana qarşı). Təəssüf ki, bu qərarların icrası ilə bağlı Nazirlər Komitəsinin tərəfindən təklif edilən ümumi tədbirlər baxımından heç bir irəliləyiş qət edilməyib. "

**BMT-nin İnsan Hüquqları Şurasının (İHŞ) Universal Dövri İcmal (UDİ) üzrə İşçi Qrupunun 11 iyul 2018 tarixli hesabatı[197].** Qeyd edilmiş hesabatda Birləşmiş Krallıq, Brazilya, İsveçrə, Amerika Birləşmiş Ştatları, Avstriya, Peru, İspaniya, Almaniya, İtaliya kimi ölkələr Azərbaycanda sərbəst toplaşmaq azadlığının vəziyyətindən narahat olduqlarını bildirib və bu azadlığı təminatını təkmilləşdirmək üçün tövsiyələr veriblər.

**BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Michel Forst, ATƏT-in Mətbuat Azadlığı üzrə nümayəndəsi Dunja Mijatoviç və Avropa Şurasının İnsan Haqları komissarı Nils Muižnieks**-in 3 iyun 2015 tarixli "Open Democracy" saytında

[194] https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/G18/065/29/PDF/G1806529.pdf?OpenElement
[195] http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=24188&lang=en
[196] http://semantic-pace.net/tools/pdf.aspx?doc=aHR0cDovL2Fzc2VtYmx5LmNvZS5pbnQvbncveG1sL1hSZWYvWDJILURXLWV4dHIuYXNwP2ZpbGVpZD0yNDAyNiZsYW5nPUVO&xsl=aHR0cDovL3NlbWFudGljcGFjZS5uZXQvWHNsdC9QZGYvWFJlZi1XRC1BVC1YTUwyUERGLnhzbA==&xsltparams=ZmlsZWlkPTI0MDI2
[197] https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/G18/210/88/PDF/G1821088.pdf?OpenElement

məqaləsində[198] Azərbaycandakı insan hüquqlarının vəziyyətinin pisləşdiyini qeyd ediblər: "Yaxın zamanlarda, xüsusilə də son 12 ayda Azərbaycanda narazılığını bildirmək və ya hakimiyyət nümayəndələrinin fəaliyyətini araşdırmaq çox təhlükəli hala gəlib. Gerçəklik odur ki, repressiyalara haqq qazandırmaq üçün hüququn aliliyi prinsipinin mahiyyəti dəyişdirilib; cinayət ittihamlarından narazığını ifadə edən insanları cəzalandırmaq üçün istifadə olunur. Qeyri hökumət təşkilatlarının fəaliyyətlərini məhdudlaşdırmaq üçün qanunvericilik qəbul edilib; polis vasitəsilə isə dinc aksiya iştirakçılarına təzyiq edilir".

**"Amnesty International".** 20 noyabr 2018-ci il tarixli bəyanatında[199] Azərbaycanda toplaşmaq azadlığının vəziyyətini belə qiymətləndirir: "Azərbaycan Konstitusiyası sərbəst toplaşmaq azadlığına təminat versə də, digər qanunvericiliklər ictimai toplantıları sərt şəkildə tənzimləyir, yerli icra hakimiyyətləri, xüsusilə də Bakı Şəhər İcra Hakimiyyəti müxalifət tərəfindən təşkil olunmuş dinc aksiyalara icazə verməkdən imtina edir. Polis dinc toplantıları dağıtmaq üçün həddindən artıq güc tətbiq edir."

# 6. Nəticə

Hesabat Azərbaycanda sərbəst toplaşmaq azadlığının ciddi şəkildə məhdudlaşdırıldığı nəticəsinə gəlib. Bu məhdudiyyətlər həm qanunvericiliyə, həm də praktikaya əsaslanır:

Qanunvericilikdə təsadüfi toplantıların açıqlaması verilmir. İnzibati Xətalar və Cinayət Məcəlləsində, sadəcə, razılaşdırılmamış mitinqdə iştirak etməyə və ya təşkil etməyə görə sanksiyalar nəzərdə tutulub ki, bunlar sərbəst toplaşmaq azadlığına qeyri-mütənasib müdaxilələrdir. Qanunvericiliyə edilən dəyişikliklərdən sonra sanksiyaların ağırlaşması da insanları toplantılarda iştirak etməkdən çəkindirir. Toplantı iştirakçılarına qarşı tətbiq edilən ağır sanksiyalara baxmayaraq qanunvericilikdə toplantını yetərli əsas olmadan məhdudlaşdıran və qadağan edən dövlət nümayəndələrinə qarşı sanksiyaları öz əksini tapmır.

"Xəbərdarlıq" anlayışı praktikada "icazə" kimi şərh edilir. Xəbərdarlıq insanların təhlükəsiz şəkildə toplantı keçirilməsini təmin etmək məqsədi daşısa da, polis nümayəndələri hətta çox kiçik qrupların belə xəbərdarlıqsız toplantı keçirilməsinə icazə vermir. Sadəcə xəbərdarlıqsız olma faktı dinc toplantının dağıdılması üçün praktikada kifayət edən səbəbdir. Bu da o deməkdir ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 3-cü maddənin III hissəsində və 8-ci maddəsinin 6-cı hissədində "son zərurət tədbiri" anlayışı praktikada tətbiq edilmir. Həm yerli icra hakimiyyətləri, həm də polis nümayəndələri toplantıları qadağan edərkən və ya dayandırarkən kifayət qədər sübut göstərmir, yəni digər məhdudiyyətlərin kifayət etməyəcəyini araşdırmır. Eyni zamanda qanunvericilikdə təsbit olunmuş müdaxilə əsasları da abstraktdırlar və buna görə də geniş miqyasda tətbiq edilirlər.

Toplantı üçün ayrılmış məkanlardan başqa yerlərdə toplantı keçirilməsinə icazə verilmir. Bu ərazilər şəhər mərkəzindən kənarda yerləşir. Lakin həmin ərazilərdə belə keçirilən toplantılara da

[198] https://www.coe.int/en/web/commissioner/-/sport-cannot-ignore-human-righ-1
[199] https://www.amnesty.org/download/Documents/EUR5594302018ENGLISH.pdf

icazə verilmədiyi hallar praktikada geniş yayılıb. Hesabatda BŞİH-in toplantıya razılıq verərkən, sadəcə, təhlükəsizlik məsələlərini deyil, toplantının məqsədinin uyğunluğunu da araşdırdığını qeydə alınıb. Bundan əlavə, sərbəst toplaşmaq azadlığının prioriteti nəzərə alınmır, bunun nəticəsində sərbəst toplaşmaq azadlığına elə məqsədlərlə (insanların istirahəti, nəqliyyat axını, sahibkarlıq obyektlərinin fəaliyyəti) müdaxilə edilir ki, bu məqsədlər tətbiq edilən müdaxilələr üçün qeyri-mütənasibdir.

Müxtəlif toplantı formalarına da məhdudiyyətlər qoyulur. Qeyd edilən müddət ərzində müxalifət tərəfdarlarının yürüş keçirmək üçün etdikləri bütün müraciətlər rədd edilib. Yürüşlərlə bağlı nəqliyyatın hərəkətinin bəhanəsinin gətirilməsi faktı yürüş institutunun mövcudluğunu inkar edir. Çünki yürüşlərlər bir qayda olaraq yollarda keçirilməlidir. Bundan əlavə, əvvəllər müdaxilə edilməyən ziyarət və anım xarakterli, sərbəst toplaşmaq azadlığı ilə tənzimlənməyən toplantılara da son illərdə müdaxilələr edilib.

Toplantıdan öncə təbliğat məqsədilə broşürlərin paylanılmasının da qarşısı alınır, təşkilatçılar polis bölmələrinə çağırılır və hətta bəziləri "polisin qanuni tələbinə tabe olmama" ittihamı ilə inzibati qaydada həbs edilir. Toplantılar zamanı polis nifrət nitqinə aid olmayan, lakin BŞİH ilə razılaşdırılmamış şüarlar yazılan plakatların da toplantı keçirildiyi ərazilərə daxil edilməsinə imkan vermir. İştirakçıların başının üzərində dronların uçması hallarına rast gəlinib. Müdaxilələr zamanı polis tərəfindən mütəmadi olaraq qeyri-mütənasib güc tətbiq edilmişdir. Polislərdən əlavə mülki geyimli şəxslər də toplantı iştirakçılarına müdaxilə edir və polis bu müdaxilələrin qarşısını almır. Toplantılardan sonra iştirakçılara sahə müvəkkillərindən zənglər edilməsi, çağırış vərəqəsiz polis məntəqəsinə çağırılması, saxlanılması və ya polisin qanuni tələbinə tabe olmama ittihamı ilə həbs edilməsi hallarına praktikada geniş miqyasda rast gəlinir.

Polis əməkdaşlarının jurnalist olduğunu bildirən və xüsusi "mətbuat" yazılmış gödəkçəsi olan jurnalistlərin çəkilişinə mütəmadi olaraq mane olduğu, kameralarını əllərindən aldığı, kobud rəftar etdiyi və hətta saxladığı qeydə alınıb.

Azərbaycan Hökuməti Avropa İnsan Hüquqları Məhkəməsinin sərbəst toplaşma barədə qərarlarını icra etməyərək eyni pozuntuların davam etməsinə şərait yaradır. Hələ də insanlar sərbəst toplaşma azadlığına aid aksiyalarda iştiraka görə və ya aksiyalardan öncə belə aksiyalarda iştirakdan yayındırılmaq üçün inzibati məsuliyyətə cəlb edilir. Həmçinin Hökumət Beynəlxalq tövsiyəedici sənədlərdə olan göstərişləri Azərbaycan qanunvericiliyində əks etdirməkdən yayınır.

## 7. Tövsiyələr

1. Təsadüfi toplantılar, "dövlət əhəmiyyətli tədbirlər" anlayışı və xüsusiyyətləri qanunda dəqiq ifadə olunmalıdır ki, hansı toplantıların təsadüfi toplantı olaraq qorunduğu bilinsin və "dövlət əhəmiyyətli tədbirlər" adı altında insaların sərbəst toplaşmaq azadlığına həddən artıq müdaxilə edilməsin.
2. Bir sıra dövlət əhəmiyyətli qurumların ətrafında 200 metr radiusu çərçivəsində piket istisna olunmaqla, digər toplantı formalarının keçirilməsinə icazə veriləməməsi "görmə və eşitmə"

prinsipini pozuduğuna, insanları hədəf auditoriyalarından uzaqlaşdırdığına, beləliklə, toplantının təsiri azaltdığına görə ləğv edilməli, ya da qeyd edilmiş məsafə qısaldılmalıdır.

3. “Sərbəst toplaşmaq azadlığı haqqında” Qanunun 14-cü maddəsinin I hissədinin 2-ci bəndinə 2008-ci ildə edilmiş dəyişiklik, yəni təsadüfi toplantılar istisna olmaqla, polisə qabaqcadan yazılı xəbərdarlıq verilməyən bütün toplantıları dayandırmaq mütləq səlahiyyəti verən qanun maddəsi ləğv edilməlidir. Bundan əlavə, qanunvericilikdə zorakı olmayan toplantı keçirməyə və toplantılarda iştirak etməyə görə İnzibati Xətalar Məcəlləsinin 513-cü maddəsi və Cinayət Məcəlləsinin 169.1-ci maddəsi ilə nəzərdə tutulan məsuliyyətlər ləğv edilməlidir.

4. Sərbəst toplaşmaq azadlığına prioritet verilməlidir. Qanunvericilikdə əks olunmuş müdaxilə əsasları dəqiqləşdirilməlidir. Digər hüquqlarla üst-üstə düşməsi sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması üçün yetərli səbəb olmamalıdır. Toplaşmaq azadlığının fundamental hüquq olduğu və insanların istirahəti, nəqliyyatın axını və sahibkarlıq və ya əyləncə müəssisələrinin fəaliyyətindən əhəmiyyətsiz olmadığı nəzərə alınmalıdır. Buna görə də, müdaxiləni edərkən səlahiyyətli nümayəndələr yetərli səbəblər göstərməli, müdaxilənin son zərurət tədbiri olduğunu sübut etməlidirlər. Toplantını əsaslı səbəb olmadan qadağan edən və ya məhdudlaşdıran səlahiyyətli yerli icra hakimiyyəti üzvü məsuliyyətə cəlb olunmalıdır.

5. Toplantıların keçirilməsi üçün xüsusi yerlərin ayrılması toplantının yalnız həmin yerlərdə keçirilməsi kimi şərh edilməməlidir. Xüsusilə də şəhərin mərkəzi ərazilərində, insanlara daha çox toplandığı və beləliklə toplantıların da hədəf auditoriyasına daha tez çata biləcəyi ərazilərdə də toplantının keçirilməsinə şərait yaradılmalıdır.

6. Xəbərdarlıq vermək icazə almaq kimi şərh edilməməlidir. Xəbərdarlığın verilməməsi də toplantıların avtomatik olaraq dayandırılmasına səbəb olmamalıdır. Polis əməkdaşları dinc toplantıların keçirilməsinə köməklik göstərməlidir və toplantını dayandırdıqda təşkilatçılara əsaslı səbəblər göstərməlidir.

7. Toplantıların hakimiyyət və cəmiyyət tərəfindən qəbul edilməyən fikirləri səsləndirmək üçün bir platform olduğu və demokratik cəmiyyətdə bu cür fikirlərin səsləndirilməsinin əhəmiyyəti nəzərə alınmalıdır. Buna görə də xəbərdarlıq əsasında razılıq verən qurum zorakı niyyəti olmayan aksiyaların məqsədəuyğunluğunu yoxlamamalıdır, sadəcə toplantının təhlükəsizliyini təmin etməyə çalışmalıdır. Eyni zamanda toplantı zamanı zorakılığa çağırış etməyən plakatlar iştirakçıların əllərindən alınmamlıdır.

8. Təşkilatçılar digər toplantı iştirakçılarının qanunazidd əməllərinə görə cavabdehlik daşımamalıdırlar. Eyni zamanda hər hansı toplantı təşkilatçısının toplantısı zamanı və ya daha sonrasında iştirakçıların qanunza zidd əməl törətmələri həmin təşkilatçılatçıların növbəti toplantılarına icazə verməmək üçün yetərli əsas olmamalıdır və belə qadağaların yolverilməz olması qanunda da öz əksini tapmalıdır.

9. Səlahiyyətli nümayəndələr toplantılardan sonra insanların sahə müvəkkilləri tərəfindən zəng edilməsi, çağırış vərəqəsiz polis bölmələrinə çağırılması, işlədiyi və təhsil aldığı müəssisələrdən xəbərdarlıq edilməsi və xaric edilməsi praktikasından əl çəkməlidirlər. Praktikada “polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama” ittihamı ilə inzibati həbslər insanları toplantılarda iştirak etməkdən çəkindirdiyinə görə, ittihamın tətbiqi təcrübəsi dayandırılmalıdır.

10. Toplantı zamanı və toplantının dağıdılması barədə göstəriş verildikdə də polis əməkdaşları mülki geyimli şəxslərin toplantı iştirakçıların müdaxilə etməsinə icazə verməməli, provakatorları toplantı ərazisindən uzaqlaşdırmalı, buna görə də toplantı təşkilatçıları ilə hər zaman əməkdaşlıq

etməlidir. Polis işçiləri təhlükəsizliklə bağlı ciddi səbəb olmadan toplantı iştirakçılarını dövrəyə alaraq və itələyərək toplantı ərazisindən uzaqlaşdırmağa cəhd göstərməməlidirlər.

11. Polis işçiləri jurnalistlərin fəaliyyətinə, video və foto çəkilişinə mane olmamalı, jurnalistlərin kameralarını və avadanlıqlarını əllərindən almamalı və onları saxlamamalıdırlar. Jurnatist birliklərinə bu situasiya ilə bağlı hüquq-mühafizə orqanları ilə birlikdə seminarlar keçirilməlidir.

12. İnsanlar və məmurlar arasında da maarifləndirmə işi aparılmalı, sərbəst toplaşmaq azadlığının əhəmiyyəti təbliğ edilməlidir. Sərbəst toplaşmaq azadlığına qanunsuz və əsassız mane törədən vəzifəli şəxslərin məsuliyyəti gücləndirilməlidir.

13. Avropa İnsan Hüquqları məhkəməsinin qərarlarının və digər beynəlxalq sənədlərinin implementasiyası və icrası təmin edilməlidir.

Qeyd: Tövsiyələrin 3; 4; 5; 6 və 12-ci bəndləri sərbəst toplaşmaq azadlığının vəziyyəti haqqında 2007-ci ildə yayımlanan hesabatda[200], 2; 5; 6; 9; 10 və 12-ci bəndləri isə bu mövzuda hazırlanmış 2014-cü il hesabatında[201] da qeyd edilməsinə baxmayaraq, problemlər aktual olaraq qalıb.

[200] https://www.dropbox.com/s/tcko9zd3uccr9tg/report%20-%20milli%20-%20Sarbast%20toplashmaq%20huququ-%202007.pdf?dl=0

[201] http://deyerler.org/engine/download.php?id=641

Sənəd **Demokratik Təşəbbüslər İnstitutunun (IDI)** apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhvə verən hər kəsə dərin təşəkkürünü bildirir.

***Məlumatlardan istifadə edərkən IDI -yə istinad etmək zəruridir.***

**Əlaqə məlumatları:**

Tel: +99455 234 76 76

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI